# CƏBRAYIL ŞƏHƏRİ AZAD EDİLDİ!

Bu bir xalq qəzetidi

ƏDALƏT

## Mehriban Əliyeva: Qələbələrimizə sevinən hər kəsi təbrik edirəm!



**Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm!**

Adalet.az -ın məlumatına görə, bu barədə Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində edilən paylaşımda qeyd edilir:

**"Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm! Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! #QarabağAzərbaycandır!"**

*Əbülfət MƏDƏTOĞLU, Əməkdar jurnalist*

## QARABAĞ AZƏRBAYCANDIR!

*Ali Baş Komandanın bu müdrik və qəti mövqeyi tariximizin qələbə səhifəsindəki ilk yazıdır*

Bax:səh-2

## Mövlud Çavuşoğlu və NATO baş katibi Dağlıq Qarabağ münaqişəsini müzakirə edib



**Mövlud Çavuşoğlu və NATO baş katibi Yens Stoltenberq Dağlıq Qarabağ münaqişəsini müzakirə edib.**

Adalet.az-ın məlumatına görə, Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu NATO baş katibi ilə Ankarada görüş zamanı Dağlıq Qarabağ Münaqişəsini müzakirə edib.

M.Çavuşoğlu bildirib ki, biz bir daha Azərbaycana dəstəyimizi qeyd etdik: "Türkiyənin Dağlıq Qarabağ məsələsində mövqeyi dəyişilməz qalır".

## Zakir Həsənov: "Ermənistandan Azərbaycana atəş açılması açıq təxribat xarakteri daşıyır"



**"Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir"**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib.

## Müdafiə Nazirliyi: Ermənistan cəbhədəki qoşunlarını təmin edə bilmir



**Ermənistan silahlı qüvvələrinin Hadrutda yerləşən 1-ci motoatıcı alayının müdafiə sahəsində silah-sursat, ərzaq və yanacaq çatışmazlığı yaranıb.**

**Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, alayın 3-cü taborunun şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Eyni zamanda, hərbi hissənin sürücüləri də döyüş və avtomobil texnikalarını ataraq döyüş zonasını tərk edib.**

## DİN atəşfəşanlıqla bağlı müraciət yayıb



**Daxili İşlər Nazirliyi müraciət yayıb. Silahlı Qüvvələrimizin cəbhədə qazandığı uğurlar, qələbə xəbərləri vətəndaşlarımızda böyük ruh yüksəkliyi, çoşqu yaradıb. Lakin təəssüflər olsun ki, ayrı-ayrı şəxslər öz müsbət emosiyalarını indiki həssas məqamda tamamilə yolverilməz olan şəkildə - fişənglərdən istifadə etməklə, atəşfəşanlıqla qeyd edirlər.**

Vətəndaşlarımızı bu cür hərəkətlərdən çəkinməyə, pirotexniki vasitələrdən istifadə etməməyə çağırır, hər bir şəxsdən ölkədəki hərbi vəziyyət rejiminin tələblərinə uyğun davranmağı xahiş edirik.

## Siyasi partiya rəhbərləri ilə görüş keçirilib

Bax:səh-3


Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 135 (5795) 6 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik


## Hülusi Akar: "Ermənistan törətdiyi hərbi cinayətə görə cavab verməlidir"



**Türkiyənin Milli Müdafiə naziri Hülusi Akar Azərbaycanın mülki vətəndaşlarını hədəf alan Ermənistanın hərbi cinayət törətdiyini deyib.**

"Haber Global" məlumat verir ki, o, Ermənistan rəhbərliyinin törətdiyi qətllərə görə cavab verməli, məsuliyyətə cəlb edilməli olduğunu bildirib: "Uşaq, qadın, yaşlı olmalarına baxmadan günahsız insanları hədəf alan Ermənistan rəhbərliyi mütləq insanlıq qarşısında cavab verəcək. Ermənistan mülki vətəndaşları hədəf alaraq hərbi cinayət törədir. Bunu hamının bilməsi lazımdır. Ermənistan daha çox hərbi cinayətlər törətmədən işğal etdiyi torpaqları boşaltmalı, terror təşkilatları ilə əməkdaşlığa son qoymalı, gətirdiyi muzdlu əsgərləri, terroristləri bölgədən çıxarmalıdır".

**O, eyni zamanda qeyd edib ki, 30 il müddətində işğala səssiz qalanlar Ermənistanın bu üzünü görməli və işğal edilən torpaqların əsl sahibinə verilməsi üçün çalışmalıdırlar.**

# Prezident atəşkəsin şərtlərini açıqladı



Bax:səh-2

## "Azərbaycanın rayonlarına hücumlar Ermənistan rəhbərliyində təşvişin göstəricisidir"



**Ermənilərin Azərbaycanın sıx məskunlaşmış mülki rayonlarına hücumu Ermənistan rəhbərliyinin zəifliyinin və təşviş içində olmasının göstəricisidir.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabındakı paylaşımında bildirib. O qeyd edib ki, erməni qoşunları Gəncə, Bərdə, Beyləqan və Azərbaycanın digər şəhərlərində sıx məskunlaşmış rayonları raket atəşinə tutur: "Bu, barbarlıq və vandallıq, Ermənistanın hərbi-siyasi rəhbərliyində zəifliyin və təşvişin göstəricisidir".

## CƏBRAYILLI ƏHMƏDOVLARIN ÜÇ QƏHRƏMANI



**Cəmil Əhmədov! Sovet İttifaqı Qəhrəmanı.**

**Sabir Əhmədli (Əhmədov)! Azərbaycan ədəbiyyatının qəhrəmanı.**

**Məhəmməd Əhmədov! Qarabağ müharibəsinin qəhrəmanı. Birinci Qarabağ savaşında Murov uğrunda döyüşlərdə şəhid olub. Sabir Əhmədovun oğlu, Cəmil Əhmədovun qardaşı oğlu!**

## Müdafiə Nazirliyi: Ordumuzda qan ehtiyatları ilə bağlı heç bir problem yoxdur

***Qan vermək məqsədilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalına vətəndaşlar tərəfindən xeyli sayda müraciətlər daxil olur.***

***Bununla əlaqədar bildiririk ki, Azərbaycan Ordusunda qan komponentləri ehtiyatları ilə bağlı heç bir problem yoxdur. Ordumuzun qan və qan komponentlərinə olan tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur.***

*Ayaz Arabaçı*

## Tam da o gün...

Bax:səh-3

## Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## Ədalət Vəliyev Arif Hacılı ilə görüşdü: Qarabağ müzakirəsi...

Bax:səh-2

## DTX Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib



**Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna könüllü olaraq 500 min manat məbləğində pul vəsaiti ianə ediblər. Hazırda pul vəsaitlərinin köçürülməsi davam edir.**

Adalet.az xəbər verir ki, bu barədə DTX-nin rəsmi saytında məlumat verilib. "Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti şanlı Azərbaycan Ordusunun Qarabağ Vətən müharibəsində qələbəsinə əmindir. Qarabağ Azərbaycandır! Zəfər Azərbaycanındır!", - məlumatda bildirilib.

## Bayrağını canından çox sevən millət: Qürurlandırıcı görüntü

**Ötən gün Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni raket atəşinə tutub.**



**Gəncə sakini isə Azərbaycanın bayrağını qucağından yerə qoymayıb.**

**Bu barədə xarici mediada paylaşım edilib. Mərd Gəncə sakininin bu davranışı hər kəs tərəfindən alqışlanıb. Xarici fotoqrafın lentə aldığı görüntü günün fotosu seçilib**

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## ERMƏNİSTAN QAÇAN ƏSGƏRLƏRİN ACIĞINI

### *bizim dinc əhalidən çıxmaq istəyir*



**27 sentyabrdan başlayan əks-hücum əməliyyatı bu gün də uğurla davam edir. Suqovuşandan sonra artıq görkəmli yazıçı Sabir Əhmədlinin doğulduğu Cəbrayıl şəhərində də müqəddəs bayrağımız dalğalanır və Cəbrayılın bir neçə kəndi də düşməndən azad olunub.**

**Həm televiziya kanallarında, həm də videolarda görürsünüz ki, Ermənistan ordusunun əsgərləri öz canlarının hayındadılar, hətta tanklarını, hərbi texnikalarını, silah-sursatlarını atıb qaçırlar.**

**(Ardı 2-ci səhifədə)**

## 97 nəfər COVID-19-a yoluxub, 91 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 97 yeni yoluxma faktı qeydə alınıb, 91 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 40 788 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 38 587 nəfər müalicə olunaraq sağalıb, 598 nəfər vəfat edib, aktiv xəstə sayı 1 603 nəfərdir.

Ölkədə son sutka ərzində 3073, hazırkı dövrədək isə 1 140 194 test aparılıb.

## Prezident: “Azərbaycan Ordusu uğurla irəliyə gedir”



**İşğal altındakı torpaqlarımızın geri alınması ilə bağlı əməliyyat plan üzrə gedir. Bu günə qədər qarşımızda duran bütün vəzifələr icra edilib. Azərbaycan Ordusu uğurla irəliyə gedir. Bir çox yaşayış məntəqələri, bir şəhər, bir neçə kənd işğaldan azad edildi. Hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir.**

Bu barədə Prezident İlham Əliyev ”TRT Haber” telekanalına müsahibəsində məlumat verib.

Dövlətimizin başçısı deyib: ”Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu, beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur”.

## Prezident atəşkəsin şərtlərini açıqladı

**Azərbaycan Prezidenti İlham Əliyev ”TRT Haber” telekanalına müsahibəsində atəşkəsin şərtlərini açıqlayıb.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı atəşkəs üçün əsas şərtin zəmanət olduğunu bildirərək deyib:

”Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, ”Qarabağ Ermənistandır”, Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar”.

## Prezident: “Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun”

**Bizim tələblərimiz var. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun.**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev ”TRT Haber” telekanalına müsahibəsində səsləndirib.

”Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi?”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bütün bu sualların havada qaldığını bildirən Prezident deyib: ”Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı Ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq. Onsuz da onların çıxışlarında göstərilir ki, Ermənistanın xaricində yaşayan erməniləri də onlar bu müharibəyə cəlb edirlər. Beləliklə, bu müharibəni regional müstəvidən çıxarıb qlobal müharibəyə çevirmək istəyirlər. Ona görə bizim atəşkəslə bağlı sözümüz birdir. Biz buna hazırıq. Amma müəyyən şərtlər var ki, onları da mən açıqlamışam”.

## İlham Əliyev: Bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır

**Əgər bizə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Amma onu da bilməliyik ki, atəşkəsi bərpa etmək o qədər də asan məsələ deyil. Çünki atəşkəs birtərəfli bərpa edilmir və bu anda çox ciddi şiddətli döyüşlər gedir. Hər iki tərəf yerlərdə olan əsgər və zabitlərə təlimat verməlidir. Biri buna əməl edəcək, o biri əməl etməyə bilər. Ancaq əgər o çıxma tarixi bizə verilərsə təbii ki, biz bu təlimatı verəcəyik. O zaman Minsk qrupunun həmsədrləri və digər ölkələr, mümkün olan ölkələr buna qoşularsa, atəşkəs bərpa oluna və beləliklə, bu döyüşlərə son qoyula bilər.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunu ”TRT Haber” telekanalına müsahibəsində aparıcının ”Şərtiniz yerinə yetirilmədiyi təqdirdə, yəni işğal altındakı torpaqlardan ermənilərin çəkilmədikləri müddətdə hər hansı atəşkəs ehtimalı varmı?” sualına cavabında səsləndirib.

Dövlətimizin başçısı mümkün olan ölkələr sırasında Türkiyənin adını çəkərək deyib: ”Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır və mən fürsətdən istifadə edərək, bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərti ilə. Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq”.

Eyni zamanda, döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibətinin çox önəmli olduğunu vurğulayan Prezident İlham Əliyev bildirib: ”Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu. Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Bizim fikrimiz məhz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər”.

# QARABAĞ AZƏRBAYCANDIR!

### Ali Baş Komandanın bu müdrik və qəti mövqeyi tariximizin qələbə səhifəsindəki ilk yazıdır

**Bu gün Azərbaycan sözün həqiqi mənasında böyük bir coşqu yaşayır. Hər yerdə, hər evdə, hər təmasda söhbət ordumuzdan, Qarabağdan və azad edilən torpaqlarımızdan gedir. 30 ildən sonra ilk dəfədir ki, Azərbaycan insanı öz şəhidini də məğrur qalib kimi qarşılayır. Bütün bu daxili çevrilişin bir səbəbi var. O da insanların Ali Baş Komandana, ordumuza olan böyük inamın təcəssümüdür. Düşmənin kənd və şəhərlərimizi atəşə tutmasından asılı olmayaraq, hər kəs ancaq qələbədən, ancaq zəfərdən danışır, mərmilərin göyə sovurduğu evləri, obyektləri sanki unudur, sanki onu görmür və yaxud da görmək istəmir. Çünki daxili inam bizim hər birimizə ”hər şey Vətən üçün, hər şey Qələbə üçün” - deyir.**

Həftənin bazar günü axşam saatlarında xalqımıza müraciət edən Ali Baş Komandan cənab İlham Əliyev hər birimizi təbrik etməklə Cəbrayıl şəhərinin azad edildiyini bəyan etdi. Ordumuzun şücaətindən, döyüş əzmindən danışan Azərbaycan Prezidenti vurğuladı ki, ***”Azərbaycan əsgəri otuz illik səbrdən, gözləmələrdən sonra düşmənə və dünyaya göstərdi ki, bizim Qarabağ problemini həll etməyə hər cür imkanımız var, biz buna qadirik. Sadəcə olaraq, biz danışıqlar yolu ilə, sülh yolu ilə məsələnin həll olunmasının tərəfdarıydıq. Ancaq Ermənistanın hərbi siyasi xuntası öz təxribatlarıyla bizi onlara cavab verməyə məcbur etdi”.*** Bu, ölkə Prezidentinin təkcə xalqa açıqlaması yox, həm də dünyaya mesajı idi. Ali Baş Komandan bununla erməni havadarlarına, atəşkəs istəyənlərə mesaj göndərirdi. Onlara çatdırırdı ki, himayə etdiyiniz, dəstəklədiyiniz, silahlandırdığınız Ermənistan ”yalançı danışıqlar” pərdəsi altında Azərbaycanın işğal altındakı torpaqlarını talayır, maddi mədəniyyət nümunələrini məhv edir.



Eyni zamanda, ölkə Prezidenti onu da qeyd etdi ki, ***”Paşinyan və onun cinayətkar dəstəsi Azərbaycanın sərhədboyu kəndlərini, dinc sakinləri atəşə tutmaqdan, təxribatçı qrupları ölkəmizə yönəltməkdən çəkinmədilər. Onlar həm bu ilin iyul ayında Tovuz istiqamətində törətdikləri böyük təxribatın cavabını alanda belə ağıllarını başlarına cəm etmədilər. Anlamadılar ki, bizim də səbrimiz var. Bu gün isə yalvarırlar, dünya liderlərinin qarşısında alçalırlar, göz yaşı tökürlər. Bunu öncədən fikirləşmək lazım idi, bu günü görmək lazım idi. Başa düşmək lazım idi ki, bizim səbrimiz hüdudsuz deyil”.***





Xalqımızın böyük sevgi ilə dinlədiyi müraciətdə ölkə prezidentinin toxunduğu hər bir məsələ, qeyd etdiyi hər bir məqam böyük qələbəmizin göz önündə olduğunu açıqca göstərirdi. Çünki o, birbaşa hədəflərə vurur, düşmənin kimliyini dünyaya nümayiş etdirirdi. Ali Baş Komandanımız Ermənistanın cılız, şərəfsiz baş nazirinə və qondarma DQR-ın prezidentinə səslənərək dedi ki: ***”Şuşada rəqs edirdiniz, andiçmə keçirirdiniz. İndi isə siçan kimi qaçıb gizlənirsiniz. Öz xalqınızı öz məkrli siyasətinizin qurbanına çevirmisiniz. İndi sizi və sizin diqtənizlə döyüşə atılanları Azərbaycan əsgəri it kimi qovur. Siz buna layiqsiniz. Amma hələ də tam nəticə çıxarmamısınız. Bilmirsiniz ki, bir yolunuz qalıb. O da ordunuzun torpaqlarımızdan rədd olub getməsidir!”.***

Bəli, ölkə Prezidentinin də vurğuladığı kimi, düşmənin bircə yolu qalır. O da ağ bayraq qaldırmaqla Azərbaycan sərhədlərindən, Azərbaycan torpaqlarından çəkilib getməkdir. Bunu ordumuzun gücü onlara qısa zamanda yəqin ki, başa salacaq. Çünki Müdafiə Nazirliyinin son bəyanatında da Azərbaycanın döyüş bölgəsindəki dinc erməni əhalisinə müraciət edilib. Onlara atəş nöqtələrindən çəkilməyi, silahlı ermənilərin əmrlərini yerinə yetirməməyi, həmçinin torpaqlarımızı işğal edən terrorçulara, işğalçılara müqavimət göstərməyi tələb ediblər. Təbii ki, öncə bu, həmin dinc erməni əhalimizin özü özünü qoruması zəruridir. Bu həm də onu göstərir ki, Azərbaycan dövləti özünün bütün vətəndaşlarının təhlükəsiziyini düşünür.

Bəli, bu gün bütün ölkə Ali Baş Komandanın son müraciətinin sevinci içərisindədir. Bu müraciətin əks-sədası dünya mediasında da, xüsusilə qardaş mediasında geniş tirajlanıbdı. Qardaş sevgisiylə qələbəmizi alqışlayan, ordumuza dəstək verən Türkiyənin tanınmış simaları, sıravi vətəndaşları, xüsusilə Türkiyə iqtidarı bir daha haqqın, ədalətin yanında olduqlarını bəyan edir və bunu tirajlayırlar. Sevindirici haldır ki, bizim haqq işimizi artıq yaxın-uzaq ölkələrdə dəyərləndirməyə, səsimizə səs verməyə baslayıblar. Bir Azərbaycan vətəndaşı kimi Güneydə Azərbaycan həqiqətlərinə coşquyla səs verən çıxışları izləmək həqiqətən qürurvericidir. Çünki qonşu İranda səslənən bu çağırışlar Ermənistanın bir anda və digər ölkələrdə olan dayaqlarına, havadarlarına sərt bir təpkidir. Elə bu günlərdə ermənilərin yenidən Gürcüstanda fəallaşması, orada muxtariyyət iddialarını dilə gətirmələri də qonşu gürcü xalqının həssas nöqtəsinə bir toxunuş olubdur. Deməli, bütün bunlar bir daha onu göstərir ki, erməni həyasızlığı bitib-tükənən deyil. Harda erməni varsa, orda problem var - bu ən böyük həqiqətdir. Özü də danılması mümkün olmayan həqiqət!

**Azərbaycanın bugünkü reallığı bir daha göstərir ki, ordumuz Ali Baş Komandanın hər bir əmrini sözsüz yerinə yetirmək qüdrətindədir. Düşmənin bütün təxribatlarına, döyüş bölgəsindən uzaq şəhərlərimizi, kəndlərimizi, hətta Xızını raket atəşinə tutmasına baxmayaraq, bu gün Azərbaycanda ordu və xalq birdir. Bu gün Azərbaycanda hər kəs Ali Baş Komandanın ətrafında sıx birləşib. Deməli, bu gün Azərbaycan böyük qələbəsinə gedən sevincli anların ilk təntənələrini yaşayır. Bu, zəfər təntənəsinin alovlanan görüntüləridir. Biz o Zəfərə inanır və o Zəfəri indidən qarşılamaq üçün Prezidentimizin bütün əmrlərini sözsüz yerinə yetirmək üçün səfərbərik. Ali Baş Komandanımız da dediyi kimi, ” Qələbə bizimdir!”, ”Qarabağ Azərbaycandır!”, ”Yaşasın Azərbaycan Ordusu!”.**

**Əbülfət MƏDƏTOĞLU,**
**Əməkdar jurnalist**

## Ədalət Vəliyev Arif Hacılı ilə görüşdü: Qarabağ müzakirəsi...

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə iqtidar-müxalifət dialoqu və yeni siyasi konfiqurasiyanın formalaşması istiqamətində işlər davam etdirilir.**





Adalet.az xəbər verir ki, 2 oktyabr tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Müsavat Partiyasının sədri Arif Hacılı ilə görüşmüşdür. Görüşdə ilk öncə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, Ermənistan Silahlı Qüvvələrinin 2020-ci ilin 12-14 iyul tarixlərində Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat, 27 sentyabr tarixində işğal olunmuş Azərbaycan torpaqlarında başlayan hərbi təcavüz qətiyyətlə pislənilmişdir. Baş vermiş hadisələr fonunda ölkədə fəaliyyət göstərən siyasi partiyaların Azərbaycanın ərazi bütövlüyü uğrunda, dövlətin təməl prinsiplərinin qorunması naminə Ali Baş Komandan ətrafında siyasi həmrəylin nümayiş etdirməsi və 50 siyasi partiyanın bəyanat imzalaması müsbət dəyərləndirilib. Müsavat Partiyası ümummilli məsələlərdə, dövlətimizin qorunmasında hər zaman siyasi həmrəyliyə hazır olduğunu bildirib.

Hər iki tərəf son döyüşlərdə şəhid olmuş bütün Vətən övladlarına Allah rəhmət etsin deyərək, ailələrinə və yaxınlarına səbr diləmiş, yaralıların tezliklə sağalacağına ümid edib.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların milli həmrəyliyi, dövlətçiliyimizin, ərazi bütövlüyümüzün qorunmasında mövqeləri yüksək dəyərləndirilib. Qeyd olunub ki, siyasi partiyaların Ali Baş Komandanın ətrafında birləşməsi ölkədə sağlam iqtidar-müxalifət münasibətlərinin formalaşmasının nümunəsidir.

Dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasət müzakirə edilib. A.Hacılı qeyd dib ki, dövlətimizin hərbi sahədə apardığı siyasət, eləcə də torpaqlarımızın azad olunması uğrunda həyata keçirdiyi hərbi əməliyyatlar ürəkaçandır. Bundan əlavə, bir sıra dövlətlərin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, beynəlxalq təşkilatların mövqeyimizin müdafiəsi bu siyasətin tərkib hissəsidir.

**Sonda A.Hacılı Müsavat Partiyasının dövlətçiliyimizin, ərazi bütövlüyümüzün qorunması, iqtidar-müxalifət arasında dialoqa töhfə verməyə hər zaman hazır olduğunu qeyd edib.**

## Səfir: Ermənistanın işğalçı qüvvələri Azərbaycan ərazilərini tərk etməlidir

**Cəbhə xəttində, eləcə də Ermənistan-Azərbaycan sərhədində baş verənlərə, bir sözlə, hazırkı eskalasiyaya səbəb Ermənistanın növbəti hərbi təxribatı olub. Hazırda Azərbaycan Ordusu beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərində işğal altındakı torpaqların azad olunması uğrunda savaşır. Bu sözləri Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev "Kviris Palitra" qəzetinə müsahibəsində söyləyib.**

Səfir deyib ki, Ermənistan 30 ildir Azərbaycana qarşı təcavüzkar və işğalçı siyasət aparır.

Bu gün onlar ağır texnikalardan yalnız Azərbaycanın hərbi mövqelərinə deyil, mülki əhaliyə də atəş açırlar. Nəticədə dinc əhali arasında ölənlər var ki, onların da bir neçəsi uşaqlardır. Bundan başqa, yaşayış evləri və binaları, mülki infrastruktura ziyan dəyib ki, onların heç birinin cəbhə ilə əlaqəsi yoxdur.

"Artıq tarixi ədaləti bərpa etməyin vaxtı yetişib. Ermənistanın işğalçı qüvvələri Azərbaycan ərazilərini tərk etməlidirlər. Hazırda işğalçı ordu Azərbaycanın Silahlı Qüvvələri tərəfindən layiqli cavabını alır", - deyə F.Quliyev vurğulayıb.

Səfir Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanın münaqişə tərəflərinin Tbilisidə görüşünün təşkili ilə bağlı təklifinə də münasibət bildirib.

**O deyib: "Əgər Ermənistan hərbi qoşunlarını Azərbaycan ərazisindən çıxarsa, biz danışıqlara hazırıq. Bu, həm Azərbaycan xalqının iradəsi, həm də dövlətin mövqeyidir".**

*Aqil ABBAS*

# ERMƏNİSTAN QAÇAN ƏSGƏRLƏRİN ACIĞINI

### *bizim dinc əhalidən çıxmaq istəyir*

**(əvvəli 1-ci səhifədə)**

**Əsgərlərimizin qarşısında duruş gətirə bilmirlər. Qaçmalarının bir səbəbi də təbii ki, ayaqlarının altındakı torpağın onların olmamasıdır. Hər bir erməni çox gözəl bilir ki, Qarabağ Azərbaycandır! Və bu əsgərlərin çoxu da Qarabağa məcburi şəkildə göndərilib. Gətirdikləri PKK-çılar, terrorçular və muzdlu əsgərlər də pul üçün vuruşur və sonda pula da tüpürür, canını qurtarmaq istəyir. Biri var pul üçün vuruşasan, biri var VƏTƏN üçün.**



**Biz Vətən üçün vuruşuruq. Allah yolunda, din yolunda, Vətən yolunda, torpaq yolunda İmam Hüseynin şəhidlik məktəbini keçmişik. Canımız bu Vətənə fəda!**

**Və Ermənistan da özünün qaçan əsgərlərinin acığını bizim dinc əhalimizdən çıxmaq istəyir. Nəinki cəbhə boyu kəndlərimiz, rayonlarımız, eləcə də cəbhə xəttindən 100-200 kilometr aralıda olan şəhər və kəndlərimizi raket atəşinə tuturlar. Burda bir məqsəd dinc əhali arasında panika yaratmaqdısa, ikinci məqsəd yenə də Azərbaycanı təxribata çəkməkdir.**



**Onlar Gəncəni, Göygölü, Mingəçeviri, Şəmkiri, Xızını, Abşeron rayonunu raket atəşinə tuturlarsa, bizim adekvat cavabımız da Ermənistanın şəhər və rayonlarını vurmaqdı. Və istəyirlər ki, biz bu addımı ataq və nəticədə onlar Kollektiv Təhlükəsizlik Şurası Təşkilatının üzvlərini də bu müharibəyə cəlb eləsinlər. Və Azərbaycanı təkləsinlər.**

**Hələ ki biz bu təxribata uymuruq. Amma qaradan artıq rəng yoxdu. Ermənistan bütün qohum-əqrəbalarını, bütün kərtənkələləri, hətta Makronu da döyüşə qatsalar, xeyri yoxdu. Azərbaycan Ordusu güclüdür, qüdrətlidir və həm də İlahi Ədalət bizim tərəfimizdədir.**

**Möhtərəm Prezident, Ali Baş Komandan Cəbrayılın azad olunmasından sonra çıxışında da bir daha bütün məsələlərə yekun vurdu.**

**Və bildirdi ki, bizim bircə şərtimiz var, Ermənistan silahlı qüvvələri Qarabağdan (Dağlıq Qarabağ da onun içində) çıxarılandan sonra hansısa danışıqlardan söhbət gedə bilər. Əks halda, heç bir danışıqdan söhbət gedə bilməz.**

**Ali Baş Komandanın hər çıxışı həm xalqda, həm də ön cəbhədəki əsgərlərimizdə qələbəyə böyük inam və ruh yüksəkliyi yaradır.**

**Tanrı xalqımızı qorusun!**
**Tanrı əsgərlərimizi qorusun!**
**Tanrı Ali Baş Komandanımızı qorusun!**

## Mövlud Çavuşoğlu: Fransa açıq şəkildə Ermənistanı dəstəkləyir



**Ermənistanın mülki əhaliyə hücumu yeni deyil. Bu ölkənin tarixinə baxanda, günahsız insaları necə qətl etdiyini görmək olar, özəlliklə də Xocalıda.**

Bunu Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu NATO baş katibi Yens Stoltenberqlə görüşü zamanı deyib. Onun sözlərinə görə, bildiyi kimi, bir daha Ermənistan yenə mülki əhalini hədəf alıb. Bütün beynəlxalq hüquq Azərbaycan tərəfindədir və beynəlxalq ictimaiyyət Azərbaycana dəstək verməlidir. Təssüflər olsun ki, beynəlxalq ictimaiyyət ya neytral qalır, ya da Ermənistana dəstək verir. Fransa açıq şəkildə Ermənistanı dəstəkləyir:

”Təssüflər olsun ki, Minsk qrupu Dağlıq Qarabağ probleminin həlli üçün heç bir şey etməyib. Ermənistan-Azərbaycan məsələsi gündəmə gələndə Minsk qrupu Ermənistandan ərazilərin boşaldılmasını tələb etmir.

NATO üzvləri də Ermənistanın işğal etdiyi ərazilərdən çıxmasını tələb etməlidir. Beynəlxalq ictimaiyyət tərəfindən cavab almayan Ermənistan bundan cəsarətlənib Azərbaycana hücumlarını davam etdirir”.

# Vətən mənə oğul desə...

## Cəbrayılda ələ keçirilən düşmən texnikası: 3 tank, 9 ”Ural”...



**Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş texnikası və avtomobilləri qənimət götürülüb.**

Adalet.az-ın məlumatına görə, qənimət götürülən silah-sursat və texnika arasında 3 tank, 9 ”Ural”, 1 ”Sadko”, 1 ”UAZ” da var.

Qeyd edək ki, dünən Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndlərini işğaldan azad edib.

## Azərbaycanın işğaldan azad olunan ərazilərində azan səsi ucaldı

**İşğaldan azad olunan torpaqlarımızda azan səsi eşidildi. Bu barədə videogörüntülər sosial şəbəkədə paylaşılıb.**

Xatırladaq ki, 27 sentyabr tarixindən Ermənistan silahlı qüvvələri cəbhəyanı yaşayış məntəqələrimizi atəşə tutub. Azərbaycanın silahlı qüvvələri düşmənin təxribatlarına cavab olaraq əks-hücum əməliyyatları həyata keçirib.

Ordumuzun genişmiqyaslı əks-hücum əməliyyatları nəticəsində Azərbaycanın işğal altında olan bəzi əraziləri azad olunub. Azərbaycanın məqsədi öz torpaqlarını müdafiə etməkdir.

## Mübariz İbrahimovun düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb

**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.**

Bu barədə Adalet.az-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Artıq həmin postda Azərbaycan Bayrağı dalğalanır!

## Azərbaycanın Hərbi Komandanlığı işğal altında olan ərazilərimizdə yaşayan dinc əhaliyə müraciət etdi

**Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan ölkəmizin erməni vətəndaşlarına müraciət edərək bildirir ki, Azərbaycan Ordusu dinc əhalini, mülki obyektləri və infrastrukturu hədəfə almır.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Ordusunun hədəfi işğal olunmuş ərazilərimizdəki atəş mövqeləri, hərbi obyektlər və hərbi infrastrukturdur. Bununla əlaqədar bu ərazilərdə məskunlaşan mülki əhalini döyüşlər gedən bölgələrdən uzaq durmağa çağırırıq.

Bildiririk ki, onların ağır döyüşlərdən ziyan çəkməməsi və ərazidən maneəsiz təxliyəsi üçün tərəfimizdən müvafiq şərait yaradılacaq. Mülki əhali ilə Cenevrə Konvensiyasının tələblərinə uyğun rəftar olunacaq və onların insan hüquqları qorunacaq.

## MN: ”Hərbi Hava Qüvvələrimizə məxsus döyüş təyyarəsinin vurulması xəbəri erməni uydurmasıdır”

**”Ermənistan tərəfi guya Azərbaycanın Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin, pilotsuz uçuş aparatlarının vurulması və bu tipli digər ”fake” xəbərləri, müxtəlif dezinformasiyaları yayır. Bir daha bildiririk ki, Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus heç bir döyüş təyyarəsi vurulmayıb. Azərbaycanın zərbə ”PUA”ları düşmənin döyüş texnikalarını darmadağın etməkdə davam edir”.**

Bunu Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov deyib.

O bildirib ki, Ermənistan Müdafiə Nazirliyi Azərbaycan barədə yalan məlumatlar yaymaqla döyüşlərdəki məğlubiyyətlərini ört-basdır etməyə çalışır:

”İctimaiyyəti düşmənin dezinformasiyalarına uymamağa, yalnız Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi bəyanatlarına istinadən etməyə bir daha çağırış edirik”. Onun sözlərinə görə, əks-hücum əməliyyəti çərçivəsində gedən şiddətli döyüşlər zamanı Tərtər rayonunun Suqovuşan, Talış kəndi, Fizuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad olub. Suqovuşan-Ağdərə istiqamətindəki döyüşlər zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tank qənimət götürülüb. Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayında müdafiə sahəsinə ordumuz tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Düşmənin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Həmin alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

Hazırda cəbhədə vəziyyət gərgin olaraq qalır”.

## Düşmənin 4 ”Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib

**Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2 ədəd, 41-ci artilleriya alayının 2 ədəd BM-21 ”Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib.**

**Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

## Düşmənin daha 3 tankı məhv edilib

**Düşmənin daha 3 tankı məhv edilib. Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin 63-cü tank taborunun daha 3 ədəd tankı məhv edilib.**

# Siyasi partiya rəhbərləri ilə görüş keçirilib

**Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya rəhbərlərinin iştirakı ilə oktyabrın 3-də Prezident Administrasiyasında ”Milli həmrəylik - siyasi dialoqun nəticəsi” adlı videokonfrans formatında görüş keçirilib. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə keçirilən tədbirdə ölkənin siyasi partiyalarının rəhbərləri bir araya gəlməklə, Azərbaycanda yaşanan milli və siyasi həmrəyliyi bir daha nümayiş etdiriblər.**

Adalet.az xəbər verir ki, əvvəlcə erməni təxribatı nəticəsində cəbhə xəttində baş verən döyüşlərdə şəhid olmuş hərbiçi və mülki vətəndaşlarımızın xatirəsi birdəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından iştirakçıları salamlayan **Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev,** ölkənin mütləq çoxluğu təşkil edən siyasi partiyalarının bir araya gəlməsindən və Prezidentin ətrafında olmalarından məmnunluğunu bildirib.

Administrasiyanın rəsmisi çıxışında cəbhədə yaşanan hadisələr, əldə olunan uğurlar, Prezident İlham Əliyevin mövqeyi, diplomatik müstəvidə qazanılan nəticələr, habelə Ermənistan hökumətinin qeyri-adekvat addımları haqqında geniş söhbət açıb.

Bildirilib ki, müasir tariximizin və haqq mübarizəmizin ən məsuliyyətli və ən qürurlu mərhələsini yaşayırıq. Bu günlərdə milli həmrəyliyə xidmət edən hər bir addım və layihə böyük əhəmiyyətə malikdir.

Ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididir. 2020-ci ildə aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, ilk çağırışla bu il iyulun 15-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqə-



dar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşib və birgə dəstək bəyanatı imzalayıblar. Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümüdür. ”Həmin bəyanat AZƏRTAC vasitəsilə 8 dilə tərcümə edilib, həmçinin dövlətimizin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə və Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin səfirliklərinə göndərilib”, - deyə şöbə müdiri Ə.Vəliyev bildirib.

Son bir neçə ay ərzində siyasi dialoqun bərqərar olunmasında, etibarlı münasibətlərin formalaşmasında və siyasi partiyaların fəaliyyəti üçün dövlət tərəfindən göstərilən dəstək haqqında məlumat verən Ə.Vəliyev, mövcud istiqamətdə əməkdaşlığın mütləq davam etdiriləcəyini diqqətə çatdırıb.

Çıxışında parlamentin fəaliyyətinə xüsusi toxunan Ədalət Vəliyev VI çağırış Milli Məclisdə müxalifət partiyalarının təmsil olunmasını ölkəmizdə demokratik münasibətlərin və siyasi dialoqun mövcudluğunu sübut edən əsas göstəricilərdən biri kimi xarakterizə edib.

Sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların bölgələrdə normal fəaliyyətinin təminat olunması üçün şöbə tərəfindən mütəmadi qaydada yerli icra hakimiyyəti başçıları ilə görüşlər keçirildiyi haqqında da məlumat verilib. Qeyd olunub ki, bütün siyasi qüvvələr üçün bərabər şəraitin yaradılması məqsədilə siyasi partiya sədrlərinin fəaliyyətinin təşviqi istiqamətində müvafiq tədbirlər görülür.

**Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Ədalət Partiyasının sədri İlyas İsmayılov, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** və digərləri çıxışlarında bildiriblər ki, Ermənistanın siyasi hakimiyyəti xalqının diqqətini ölkə daxilindəki sosial-iqtisadi problemlərdən, pandemiyanın yaratdığı sosial çətinliklərdən yayındırmaq məqsədilə cəbhədə təxribat törədib. Bu, bir daha göstərir ki, Ermənistan hökuməti 30 ildir sürən münaqişənin həllində maraqlı deyil. Bu məqsədlə mütəmadi olaraq cəbhə xəttində atəşkəsi pozur. Ermənistan baş nazirinin qəbuledilməz bəyanatları, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi müzakirələrində konstruktiv mövqe nümayiş etdirməməsi, ”Qarabağ Ermənistandır” kimi sərsəm bəyanatları danışıqların pozulmasında əsas amillərdir.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildiriblər.

Videokonfransın sonunda siyasi dialoqun dəstəklənməsinin ölkəmizdə demokratiyanın inkişafında mühüm rol oynadığını vurğulayan Prezident Administrasiyasının şöbə müdiri Ə.Vəliyev Azərbaycan xalqının ölkə rəhbərliyini daim dəstəklədiyini deyib, həmçinin milli və siyasi həmrəyliyin qorunması üçün bütün lazımi işlərin görüləcəyini vurğulayıb.

**Çıxışını dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin ”Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik!”, ”Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” fikirləri ilə bitirən Ədalət Vəliyev siyasi partiyaların rəhbərlərinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib.**

# Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirildi.**



Komitənin sədri Əhliman Əmiraslanov öncə Azərbaycan torpaqlarının işğaldan azad olunması istiqamətində ordumuzun uğurlarından söz açdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və siyasi iradəsi ilə beynəlxalq hüquq çərçivəsində aparılan zəfər yürüşünün davam etdiyini vurğuladı. İclasda Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Adalet.az-ın məlumatına görə, sonra Əhliman Əmiraslanov bildirdi ki, komitə üzvləri könüllü olaraq bir aylıq maaşlarının Silahlı Qüvvələrə Yardım Fonduna köçürülməsi barədə yekdil qərar qəbul ediblər.

Səhiyyə komitəsinin iclasında "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı.

Gündəlikdəki məsələ barədə məlumat verən komitə sədri birinci oxunuş zamanı səslənmiş təkliflərə münasibət bildirdi. Sonra müzakirələr başlandı.

**İclasda ekspert qismində iştirak edən Tibb Universitetinin, Mərkəzi Klinik Xəstəxananın və Mərkəzi Gömrük Hospitalının təmsilçiləri - professorlar Nuru Bayramov, Kamran Musayev və tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi Vüqar Qurbanov qanun layihəsi ilə bağlı rəy və təkliflərini nəzərə çatdırdılar. Belə mükəmməl qanun layihəsi hazırladıqlarına görə Səhiyyə komitəsinin üzvlərinə təşəkkürlərini bildirdilər.**

**Nicat Novruzoğlu**

# Kamran Əliyev dünya dövlətlərinin baş prokurorlarına müraciət edib

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev 04 oktyabr 2020-ci il tarixdə ABŞ, Kanada, Avstraliya, Almaniya, Rusiya, Gürcüstan, Ukrayna, Belarus, Özbəkistan, Uruqvay, İraq, İran, Argentina, Braziliya, Bolqarıstan və Polşanın Baş prokurorlarına, eləcə də Livan, Yunanıstan, Suriya və Fransa ədliyyə nazirlərinə rəsmi müraciət etmişdir.**

Baş prokurorluqdan Adalet.az-a verilən məlumata görə, müraciətdə bildirilir ki, Ermənistan Respublikasının rəhbərliyinin dövlət terroru siyasətinə bağlılığının sübutu olaraq bu ilin sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən atəşkəs rejimi kobud şəkildə pozulmaqla əsasən dinc əhalinin sıx yaşadığı ərazilər, xəstəxanalar, məktəblər, uşaq evləri ağır artilleriyadan atəşə tutularaq mülki infrastruktura külli miqdarda ziyan vurulmuş, 04 oktyabr 2020-ci il tarixdən başlayaraq döyüş bölgəsindən



uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, o cümlədən strateji senəye əhəmiyyəti daşıyan Beyləqan və Mingəçevir şəhərlərinin yaşayış məntəqələri raket və mərmilərlə atəşə tutulmuş, nəticədə ölən və yaralananlar var.

Azərbaycan Respublikasının Silahlı qüvvələri tərəfindən əks-hücum tədbirlərinin görülməsi nəticəsində erməni silahlı qüvvələrinin öz mövqelərini itirmələri səbindən, yeni canlı qüvvə toplamaq məqsədi ilə Ermənistan xarici ölkələrdə yaşayan erməniləri silahlı qarşıdurmada iştirak etməyə çağırmışdır.

Kütləvi informasiya vasitələrində təxminən 1000-ə yaxın etnik ermənilərin Azərbaycan Respublikasının ərazisinə gəlmələri və ya gəlmək istədikləri barədə məlumatlar yayılmışdır. Qeyd edilmişdir ki, BMT-nin Təhlükəsizlik Şurasının 2178 (2014) saylı qətnaməsində ”xarici terrorçu döyüşçülər” termini ilə digər ölkələrdə terror aktlarının təşkilində, həyata keçirilməsində iştirak edən şəxslər müəyyən edilmişlər.

Xarici dövlətlər nəzərə almalıdırlar ki, bu kimi ”erməni könüllüləri” döyüş bacarıqlarını əldə etdikdən sonra yaşadıqları dövlətlər üçün real təhlükə mənbəyinə çevrilə bilərlər.

**Həmçinin müraciətdə qeyd olunan ölkələrdə çoxsaylı erməni diasporasının mövcud olmasını, həmin diasporanın nümayəndələri tərəfindən ”erməni könüllülərinin” daşınmasının təşkil edilməsi nəzərə alınmaqla ölkə vətəndaşlarının kütləvi şəkildə Ermənistan Respublikasını ziyarət etmələrinə xüsusi diqqət yetirilməsi, eyni zamanda xarici ölkələrin ərazisindən terroristlərin Azərbaycan Respublikasına daşınmasının qarşısını alınması üçün preventiv tədbirlərin görülməsini və həmin şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri xahiş edilmişdir.**

# Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib

**Oktyabrın 5-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirildi.**



Milli Məclisdən Adalet.az-a bildirilib ki, iclası komitə sədri Siyavuş Novruzov açıb. Sonra Dağlıq Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Ermənistanın Azərbaycana qarşı təxribatları pislənilib. Bildirilib ki, Azərbaycan ordusunun yüksək döyüş hazırlığı nəticəsində bu təxribatların qarşısı uğurla alınıb. Azərbaycan əsgərləri yüksək şücaət nümayiş etdirərək Dağlıq Qarabağda hərbi baxımdan əhəmiyyətli yüksəklikləri ələ keçirib, Tərtər, Füzuli rayonlarının bir sıra kəndlərini, Cəbrayıl şəhərini və rayonun bəzi kəndlərini düşməndən azad ediblər.

Bu münasibətlə Ali Baş Komandanı, xalqımızı, o cümlədən deputatlarımızı təbrik edib. Deputatlar bu günlərdə Azərbaycanın döyüş bölgəsindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərləri ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulmasını şiddətlə qınayıblar, rəşadətli Azərbaycan Ordusunun düşmənə layiqli cavab verdiyini bildiriblər. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın işğal altında olan torpaqlarının tezliklə azad ediləcəyinə əminliklərini vurğulayıblar.

Sonra Siyavuş Novruzov iclasın gündəliyi barədə məlumat verib. Qeyd edilib ki, gündəlikdəki qanun layihəsi ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında qanun layihəsidir. Layihəyə əsasən Azərbaycan Respublikasının Tərtər rayonunun Çayçı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırılır. Azərbaycan torpaqları işğaldan azad edilir, bu ərazilərdən biri də Madagiz kəndidir. Tarixi adı Suqovuşan olan bu kəndin adı da ermənilər tərəfindən dəyişdirilmişdi. Prezident İlham Əliyev tərəfindən Suqovuşanın tarixi adı bərpa edilir və bu, xalqımızın ürəyindən xəbər verən tarixi bir addımdır. Qeyd edildi ki, Milli Məclis Sədri Sahibə xanım Qafarovaya parlamentin inzibati binasında mövcud olan görüş otaqlarının və iclas salonlarının adlandırılması haqqında imzaladığı Sərəncama görə minnətdarlığımızı bildiririk. Bu gün biz bu məsələni Milli Məclisin Qarabağ zalında müzakirə edirik. Sonra komitə sədrinin müavini Elşən Musayev, deputatlar Səttar Möhbalıyev, Tahir Rzayev, Cavid Osmanov, Səbinə Xasayeva, Malik Həsənov öz çıxışlarında Dağlıq Qarabağda baş verən son hadisələrə münasibət bildiriblər. Qeyd edilib ki, Azərbaycan bu gün öz əzəli, beynəlxalq səviyyədə tanınmış torpaqları uğrunda mübarizə aparır. Millət vəkillər bu haqq işində şanlı ordumuza uğurlar dilədilər.

**Müzakirələrdən sonra qanun layihəsi parlamentin plenar iclasına tövsiyə edildi.**

**Nicat Novruzoğlu**

***Ayaz Arabaçı***

# Tam da o gün...



*Boğazımı bir udum,siqarla yaşlayıram.*
*Sözümü sənləaçıb, səninlə başlayıram.*
*Allahı çağırıram, şeytanı daşlayıram.*
*Bəzən olur özümdən-özümü dışlayıram.*
*Sinəmi torpaq kimi eşirəm, xışlayıram.*
*Hamıya hirslənəndə, səndə yavaşlayıram.*
*Hər gün səni öyürəm, səni alqışlayıram.*
*Mənim əsgər qardaşım, baş əyirəm önündə-*
*Əyirəm önündə baş.*
*Savaş indi başlayır-İndi başlayır savaş.*

*Nicat qana-qandadır,nicat kinə-kindədir.*
*Böyüyüb sıraların,gör neçə yüz mindədir.*
*Quzğunlar qaynaşsa da.durnalar səfindədir.*
*Sənin qeyrət kitabın,könlümün rəfindədir.*
*Sülh deyib bağıranlar,hamısı kefindədir.*
*Qoru,bəbəyin kimi,nə ki,şərəfindədir.*
*Bu gün Tanrı özü də,sənin tərəfindədir.*
*Xocalının hələ də,yanır gözlərində yaş.*
*Savaş indi başlayır-İndi başlayır savaş.*

*Nöqtə qoy nağıllara,inanmaq vərdişinə.*
*Çox taxıldı bağrımız,xəyanətin şişinə.*
*Dəvə boyda ölkələr,susdular haqq işinə.*
*Vurdun bu imtahanda,çoxlarını dişinə.*
*Qurban olum o məğrur,o amir yerişinə.*
*Dola bu məlunların,boynunu kirişinə.*
*Onsuz da çaş-baş qalıb,qalıbdı yağı,çaş-baş..*
*Savaş indi başlayır-İndi başlayır savaş.*

*Uca bayrağındadı,gəzdiyimiz mənalar.*
*Artıq dərk eləyibdir,bunu işi fənalar.*
*Səninkidir dualar-səninkidir sənalar.*
*Kəlbəcərə-Laçına,zəfər gəmin yan alar.*
*Oğul dərdə qapılmaz,oğul qana-qan alar.*
*Burda arxa cəbhədəyuxu yatmır analar.*
*Ürəyində həyəcan,gözündə sonsuz təlaş.*
*Savaş indi başlayır-İndi başlayır savaş.*

*Qollarında can verib,neçə-neçə qardaşın.*
*Şahdağından ucadı,məğrur əyilməz başın.*
*Çatılmadı bir kərə,ağır günümdə qaşın.*
*Baxma çiçək yaşıdı-fidan yaşıdı,yaşın.*
*Bir aslan savaşıdı,bu gün sənin savaşın.*
*Səndən başqa kimi var,bu torpağın-bu daşın..*
*Dənlə hey alçaqları,bir ucdan yavaş-yavaş,*
*Savaş indi başlayır-İndi başlayır savaş..*

*Qayaların köksünə,basılsın qızıl izin.*
*Təkcə Qarabağ deyil,ünvanı sevgimizin.*
*Gözünü yolda qoyma,Savalanın,Təbrizin.*
*Önündə sərsəmləri,süründür dizin-dizin.*
*Qana-qan vaxtı gəlib,nə göstəriş-nə izn,*
*Qeyrətinə güvənir,Vətən hər birinizin..*
*Yeri gəlsə daş elə.elə,ürəyini daş.*
*Savaş indi başlayır-*
*İndi başlayır savaş!!!*

# BİZ AZƏRBAYCAN PREZİDENTİNİN YANINDAYIQ

**Bizim ölkə çox xoşbəxtdir ki, onun İlham Əliyev kimi uzaqgörən, müdrik prezidenti və Mehriban Əliyeva kimi Birinci vitse-prezidenti var. Hər iki böyük siyasətçi Azərbaycan xalqını çox ağır və çətin günlərdən xilas edib və yüksək inkişaf mərhələsinə çatdırıb. Hələ Azərbaycan dövləti tarixdə indiki kimi siyasi, iqtisadi və hərbi cəhətdən güclü və qüdrətli olmayıb. Mən də həmişə vətənin həm yaxşı günlərində, həm də çətin anlarında Prezidentimin, xalqımın, millətimin yanında olmağı özümə qürur saymışam.**

Bu gün doğrudan da Azərbaycan böyük bir tarix yazır. İşğal altında olan rayonlarımız, kəndlərimiz, yaşayış məntəqələrimiz bir-bir azad edilir. Bu sevinci bizə yaşadan Azərbaycan Prezidenti İlham Əliyev və Ordumuzdur. Artıq böyük savaşın 9-cu günüdür. Və bu 9 gündə biz 27 il düşmən tapdağı altında olan Füzulinin 5 kəndini, Cəbrayılın kəndləri ilə yanaşı mərkəzini, eləcə də Suqovuşan kimi strateji əhəmiyyətli mövqeyi ələ keçirmişik. Deməli, Azərbaycan Ordusunun qarşısında heç bir qüvvə dayanmağı bacarmır. Düzdür, ermənilər və havadarları bu savaşı saxlamağa çalışırlar. Və hətta Gəncə, Mingəçevir şəhərlərini raketdən atəşə tuturlar. Cənab Prezidentin xalqa müraciəti bir daha göstərdi ki, bu savaşın və mücadilənin qarşısını heç kəs ala bilməyəcək. Mənim boya-başa çatdığım Füzulinin Molla Məhərrəmli kəndinə də mərmilər atılıb. Evlərə və digər infrastrukturlara ziyan dəyib, eləcə də Horadiz şəhərinə. Amma bunlar bizi qətiyyən qorxutmur. Elə Horadizdəki bir çox yerlərin inşasını və tikintisini biz həyata keçirmişdik. İndi əsas məsələ odur ki, yağı düşməni bütün işğal altında olan torpaqlarımızdan azad edək. Evlərin dağılması, infrastrukturun sıradan çıxarılması bizi bir o qədər də çəkindirmir. Allahın və cənab Prezidentin köməyi ilə biz müharibədən sonra əvvəllər olduğu kimi, işğaldan azad olunan kəndlərimizi, şəhərlərimizi bərpa edəcəyik. O cümlədən Füzulinin kəndlərini və şəhərini də.



**Mən sevinc hissi keçirirəm ki, bu gün Azərbaycan xalqı cənab Prezidentin və Azərbaycan Ordusunun ətrafında bir yumruq kimi birləşib. Mən də bir vətəndaş olaraq, bir füzulili olaraq bu mücadilədə, bu savaşda cənab prezidentlə, onun xanımıyla həmrəyliyimi bildirirəm və onlara dəstək olduğumu ifadə edirəm. Biz birlikdə olsaq nəinki erməniyə, hətta onların havadarlarına da üstün gələcək, bayrağımızı işğaldan azad olunmuş rayonlara sancacağıq. Böyük qələbə bizimlədir!**

**Xaləddin HÜSEYNOV**
**Füzuli rayon sakini**

# UĞURLU ƏMƏLİYYATLARIN SONU QƏLƏBƏDİR!



***Maşallah Məftun,***
***Hərbi ekspert,***
***Qarabağ qazisi***

**Son günlər ordumuzun fəallığı göz önünndədir. Otuz ilə yaxındır xalqımız ümüd, həsrət içində çırpınır- bəlkə sbah açılan səhər üzümüzə güləcək-torpaqlarımız yağı düşmən tapdağından azad olacaq. Otuz ilə yaxındır ki, Ulu Tanrının bizə bəxş etdiyi yeraltı, yerüstü sərvətləri, memarlıq və tarixi abidələri ermənilər söküb talamaqla məşğuldurlar. Beynəlxalq səviyyədə tanınan ərazilərimizin 23 faizi düşmən tapdağındadır. Nəticədə milyonlarla soydaşlarımız qaçqın, köçkün həyatı yaşamaqdadırlar.**

Məlumdur ki, uzun illərdi Ermənistan tarixi saxtalaşdırmaqla öz yalanlarını dünyaya nümayiş etdirməkdədir. Dünya ölkələrinin əksəriyyəti bu millətin saxta hayküyünə və göz yaşlarına inanaraq, əsl həqiqətdən uzaq düşmüşlər.

### *BMT-nin 1993-cü ildə vermiş olduğu*

***822, 853, 874, və 884 saylı dörd qətnaməsi 30-ilə yaxındır yerinə yetirilmir, Ermənistan bu qətnamələri heç vecinə almır. Bu gün Azərbaycan Ordusu bu qətnamələrin icrasını yerinə yetirirsə bütün dünya o cümlədən Minski qrupunun həmsədri kimi Fransanın prezidenti Emamuel Makron Azərbaycan Respublukasının prezidenti İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdar olmalıdı. Ona görə Azərbaycan BMT-kimi böyük bir qurumun batmış qərarlarını dirildir. Oktyabrın 1-də ATƏT-in Minski qrupuna daxil olan ölkələrin (ABŞ, Fransa və Rusiya) prezidentləri bəyanat yayaraq hərbi əməliyyatları dayandırmağa çağrış etdilər. BMT- də bu oxşar çağrışla bağlı çıxış etmişdir. Sual meydana çıxır- Əcaba biz nəyi dayandrmalıyıq- analarımızın göz yaşlarını, yoxsa axıdılan qanları, istəyirsiz 30 il yaşatdıqlarınızı sonu ğrünməyənə qədər yenə də yaşayaq?! Fikrimcə işğalçı dövləti 3-gün içərisində məcbur etməlidirlər işğal etdiyi Azərbaycan torpaqlarından qeyri şərtsiz çıxsınlar.***

Fransanın prezidenti Makron:-"Qarabağı bu dəfə ələ keçirsələr mən bunu qəbul etməyəcəyəm"-ifadəsini işlədir. Ümumiyyətlə bu nə deməkdir? Axı Fransa BMT-nin bizim ərazi bütövlüyümüz haqqında çıxardığı 4 qətnaməyə səs verib. İndi isə onun qarşıdan seçkisi gəlir deyə, Fransada yaşayan erməni lobbisindən səs gözləyir onun üçün də belə düşünülməmiş addımlar atır.

### *Onun verdiyi müsahibə və bəyanatlar*

şəxsi maraqlara söykənir. Fransa ATƏT-in Minski qrupunda həmsədirlikdə qalmamalıdır. O neytrallığını, bitərəfliyini saxlaya bilmədi, açıq şəkildə Ermənistana dəstək verir, belə vasitəçi olurmu? E. Makronun bütün deyimləri, bəyanatları öz çevrəsinə, daxili auditoriyasına hesablanıb. Fikrimcə Makron Minsk qrupundan getməli lazım olarsa onun yerinə Türkiyə dövləti həmsədrlərdən biri olmalıdır. Məncə nə qədər haqqını, məneviyyatını itirəsən ki, belə bəyanət verəsən bunu Allah da bağışlamaz. Belə götürəndə biz əyər özümüz qan töküb, şəhid verib torpaqlarımızı erməni işğalından azad ediriksə ATƏT-in Minski qrupu heç bizə lazım deyil. Beynəlxalq hüququn bütün müddəlarına görə Qarabağ Azərbaycanın tarixi torpaqlarıdır, ya biz millət olaraq məhv olmalıyıq yada Qarabağı heç kəsə verməyəcəyik.

Bu məqamda bəzi faktları sadalamaq yerinə düşər.

*-Ermənistanın baş nazii Nikol Paşinyanın son günlər sərsəm çıxışları, bəyanatları xalqımızın böyük hiddətinə səbəb olmuşdur. "Lələtəpə" , "Tovuz döyüşləri", avqustun -23 də Goranboy istiqamətinə göndərdiyi diversiya-kəşfiyyat qrupunu törətdiyi məlum hadisələrdən sonda işğalçı ölkənin arası kəsilməyən hücumları ordumuzu əks hucuma keçməyə vadar etmişdir.Əlbət ki, işğalçılıq hüdudlarını genişləndirməyi qarşısına məqsəd kimi qoyan Ermənistanın siyasi rəhbərləri xarici ölkələrdən könüllülük əsasənda muzdlular gətirməyə başladı. İşğal olunmuş ərazilərimizə Livandan, Suriyadan, Fransadan, Amerikadan gətirilmiş etnik erməni quldurlar, axtarışda olan PKK, PYD, PYG ünsürləri Azərbaycanın tarixi, əzəli torpaqlarında narkotika becərməklə terrorlar törətməyə başlayıblar. Burada az vaxt içərisində erməni hərbi birləşmələrinin yaradılması onu göstərdi ki, erməni hakimiyyəti sülh danışıqlarını bilərəkdən pozur, danışıqlar masasına oturmaq istəmir. Xankəndinə Ermənistanın rəhbərlərinin mütəmadi olaraq gəlmələri təcavüskar ölkənin məkrli üzünü bir daha açıb göstərdi.*

Azərbaycan Respublikasının prezidenri cənab İlham Əliyev işğalçı ölkənin hədəflərini, planlarını yxşı görürdü. Onun üçün Ali Baş komandanımız İlham Əliyev- düşmənin hücumuna qarşı əks-hücum əmrini verdi. Göründüyü kimi ordumuzun döyüşdüyü torpaqlarda nəticələr göz qabağındadır, saatbasat, dəyqəbədəyqə əsgərlərimiz irəliləyir.

### *Suqovuşanın*

***(Madagiz kəndi) azad olunması, Fizuli, Cəbrayıl şəhərinin və onun xeyli sayda kəndlərinin işğalçılardan təmizlənməsi xalqımızda ruh yüksəkliyi yaratmışdır.***

Oktyabrın 4-də 100mindən çox əhalisi olna Mingəçevir şəhəri raket atəşinə tutublar. Ölən və yaralalanlar var-dinc əhaliyə qarşı bu qəbuledilməzdir.

**-Bəli ölkə prezidenti cənab İlham Əliyevin təhlükəsizlik və xarici siyasət sahəsində atdığı çevik strateji addımlar hər vaxt diqqət mərkəzindədir. Son günlər möhtərəm prezidentin çıxışları, telekanallara müsahibələri, böyük qələbədən xəbər verir. Demək istəyirəm şəhid versək də xalq sevinc içərisindədir. 30 ildən artıqdır xalqın gözlədiyi bu an yetişib, xalq silaha sarılıb sözünü demək istəyir, düşmənə kimin-kim olduğunu sübut etmək istəyir, həvəsdi- bəsdi ordu-xalq Ali Baş Komandan başda olmaqla birdir.**

Sentyabrın 27 günü tarixə qızıl hərflərlə yazılacaq. Biz ordumuzla qürur duyuruq. Bu gün cəmiyyətimizdə çox güclü milli həmrəylik nümayiş olunur. 51-partiyanın bir yerə yığılıb prezidentimizə dəstək nümayiş etdirmələri bütün umukusülərin üstündən qırmızı xətt çəkdi.

Bu amal süpürgəçidən tutmuş pezidentəcən hamını sevindirir. Xalq müharibənin bitməsini yox qələbəni gözləyir. Biz yaxşı başa düşürük şəhidlərimiz var, yaralılarımız var, kəndlərimizdə dağıntılar çoxdur, onu da bilirik bizim Xəzərdən oyana yerimiz yoxdur.

Rusiyanın bütün rəhbərliyi, Amerikanın, Fransanın, Almaniyanın, bütün rəhbərləri, prezidentləri Cənab Prezidet İlham Əliyevə zəng vuraraq müharıbənin dayanmasını xahiş edirlər, lakin onlar başa düşmürlər ki, işğalçı dövlət Azərbaycan torpağlarından çıxsın sonra Azərbaycan əks hücumu dayandırsın. 30 ilə yaxın bunlar xalqımızın əsəbləriylə oynamış indi bizə ağıl verirlər. Üç ölkənin üçü də ABŞ, Fransa, Rusiya bu günədək çalışmışlar Qarabağı bizə unutdursunlar.

Qardaş Türkiyənin Cumhur Başqanı Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə Parlamentinin sədri Mustafa Şentor-"Türkiyə var qüvvəsiylə Azərbaycanın yanındadır" ifadəsi Pakistan, Əfqanıstan, Ukrayna, Gürcüstan kimi dost ölkələrin "-Biz sizin yanınızdayıq"-deməsi bizi qürurlandırır. İslam dünyasında Azərbaycan dünyəvi dövlət kimi tanınır. Bu ölkədə bütün millətlərin dinləri, inancları azaddı. Bizi məyus edən faktorlar da az deyil əyər İslam həmrəyliyi Misirdə Ermənistan prezidentinin ayağının altına qırmızı xalça salmaqla, qonşumuz, din qardaşımız İran gecə-gündüz Ermənistana silah, xammal, ərzaq daşıyırsa axı İslam Həmrəyliyi belə olmur.

### *Haqq işimizdə*

bəzi dövlətlər susqunluq nümayiş etdirirlər. Onlar bilməlidirlər ermənilər tarix boyu özlərində fağır, əzabkeş obrazı formalaşdıraraq özlirini dünyaya təqdim ediblər. Nikol Paşinyan xalq ehtirazlarıyla hakimiyyətə gəlmiş jurnalistdir. Bu gün Dağlıq Qarabağda tökülən qanın, hərbi əməliyyatların, alovlanmasında 3 aylıq jurnalist kursunun müdavimi birbaşa özü günahkardır. Biz bilirik daşnaklar onu sıxır "Böyük Ermənistan"iddiasını irəli sürürlər, Paşinyanın başqa seçimi qalmır.

**Azərbaycan prezidenti İlham Əliyevi milli maraqlardan heç kim döndərə bilməz. O, prezident olaraq öz siyasətini davam etdirir, beynəlxalq hüquq çərçivəsində torpaqlarımızı geri qaytarmağa çalışır. Təkrar vurğulamağa dəyər ki, bu günlərdə 51 partiyanın prezidentlə həmrəylik nümayiş etdirməsi bir daha onu göstərdi ki, xalq prezidentin prezident xalqın arxasındadır. Xalq yaxşı bilir müharibə soruşmaqan hər bir ailənin evinə gələ bilər. Azərbaycan ordusu bu gün tarix yazır. Bizim işimiz haqq işidir. Cəsusluq sindromu erməniləri bu səviyəyə gətirib. Cənab Prezident demiş-Erməninin bizim torpaqlarımızda nə işi var. Döyüşdə qələbələrimiz çoxdur. Uğurlu əməliyyatların sonu qələbədir!**

# "Mülki obyektlərimiz durmadan hədəfə alınır"

*”Əlbəttə ki, beynəlxalq humanitar hüquq normaları müharibə aparılmasının metod və vasitələrinə münasibətdə də dövlətlərin üzərlərinə bir sıra öhdəliklər qoyur. Belə öhdəliklər kimi mülki obyektlərin hücumlardan müdafiə vasitəsi kimi istifadə edilməməsi, mülki əhalinin yaşaması üçün zəruri olan obyektlərin məhv edilməsi və ya başqa yerə köçürülməsinin qadağan edilməsi göstərilə bilər. Bu öhdəliklər həmçinin ”Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” 1949-cu il İV Cenevrə Konvensiyasında da əks olunmuşdur”. ”Ədalət” qəzetinin qonağı BDU-nun Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müəllimi Nişat Rəhimovdur.*

### *“Ermənistan tərəfdar çıxdığı bütün beynəlxalq öhdəliklərini pozmaqda davam edir”*

**-İşğalçı Ermənistan dövləti tərəfindən mülki əhalinin hədəf seçilməsi ilk hal deyil. Nicat müəllim, beynəlxalq hüquqda mülki əhalinin hədəf seçilməsi haqqında nə deyilir?**

-Bildiyimiz kimi, müasir müharibə reallığında mülki əhali çoxsaylı təhlükələrə məruz qoyulur. Tarixə də nəzər salsaq, görərik ki, hərbi əməliyyatlardan ən çox zərər çəkən məhz mülki əhalidir. Lakin beynəlxalq humanitar hüquq hərbi əməliyyatların istisnasız olaraq münaqişə tərəflərinin silahlı qüvvələri arasında aparılmasını nəzərdə tutur. Buna görə də müharibə zamanı mülki şəxslərə toxunulmamalıdır. Beynəlxalq humanitar hüquqa görə mülki əhali silahlı qüvvələrin heyətinə daxil olmayan bütün şəxslərdir. Bu şəxslərə 12 avqust 1949-cu ildə qəbul edilmiş ”Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında” Cenevrə Konvensiya ilə, beynəlxalq humanitar hüquqla himayə edilmək hüququ verilir. Həm Azərbaycan, həm də Ermənistan adıçəkilən Konvensiyanı digər 3 Konvensiya ilə bərabər 1993-cü ilə ratifikasiya etmişlər və deməli, hər iki dövlətin müvafiq beynəlxalq-hüquqi sənədlərin müddəalarına riayət etmək öhdəlikləri vardır. Lakin Ermənistanın Azərbaycana qarşı törətdiyi vəhşiliklər, soyqırım aktları, müharibə cinayətləri onu göstərir ki, Ermənistan nəinki, qeyd etdiyim konvensiyaların müddəalarını, həmçinin insan hüquqları və humanitar hüquq sahəsində tərəfdar çıxdığı bütün beynəlxalq öhdəliklərini pozmuşdur və hal-hazırda da pozmaqda davam edir.

Konkret olaraq qeyd etdiyiniz məsələyə gəldikdə, silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasında beynəlxalq hüququn mühüm sahəsi olan beynəlxalq humanitar hüququn sahəvi prinsipləri kimi: **1)** münaqişə edən tərəflərin mülki əhali və mülki obyektləri qorumaq üçün həmişə mülki əhali və kombatantları fərqləndirməsi; **2)** əsas məqsədi mülki əhalini qorxuya salmaq olan zorakılıq aktları ilə hədələmənin qadağan olunması; **3)** mülki əhalinin qorunması, o cümlədən, mülki əhali arasında təsadüfi itkilər və təsadüfi zədələrə yol verilməməsi üçün bütün ehtiyat tədbirlərinin görülməsi; **4)** mülki əhalidən hərbi müharibə aparma metodu kimi mülki əhali arasında aclıqdan istifadə edilməsinin qadağan olunması qeyd olunmalıdır. Beynəlxalq cinayət hüququnda belə bir yanaşma qəbul edilib ki, mülki əhali insanlıq əleyhinə cinayətlərin hədəfi qismində çıxış edir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 7-ci maddəsinin 2-ci bəndinə görə, hər hansı mülki əhaliyə qarşı hücum dedikdə, dövlətin və ya təşkilatın bu cür hücumun törədilməsinə yönəlmiş siyasətinin həyata keçirilməsi, yaxud həmin siyasətə kömək məqsədilə hər hansı mülki əhaliyə qarşı 7.1-ci maddədə sadalanan insanlıq əleyhinə cinayətlərin çox sayda törədilməsi ilə əlaqədar davamlı davranışı bildirir. Tərifdən göründüyü kimi, mülki əhaliyə qarşı hücum, habelə insanlıq əleyhinə cinayətləri təşkil edən əməllərin törədilməsi məhz dövlətin davranışını ifadə edir.

”Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” 1949-cu il IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə görə döyüş əməliyyatından bilavasitə iştirak etməyən şəxslərin həyatına və ya şəxsiyyətinə qəsd etmək, o cümlədən onları hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, onları girov götürmək, insan ləyaqətinə toxunmaq, eləcə də həmin şəxslərlə təhqiramiz və alçaldıcı tərzdə rəftar etmək qadağan edilir. Bu öhdəlik Konvensiyaya tərəfdar çıxmış dövlətlər üçün açıq-aydın şəkildə ifadə edilməsinə baxmayaraq, Ermənistan tərəfindən xüsusilə kobud şəkildə dəfələrlə pozulmuşdur və pozulmaqda davam edir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində iyirmi min nəfər həlak olmuş, əlli min şəxs isə əlil olmuşdur. Bütövlükdə isə münaqişə müddətində 6 mindən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir və girov götürülmüşdür.

Doğma Dağlıq Qarabağımızın işğaldan azad olunması uğrunda ”Vətən müharibəmiz”in gedişatında bugünkü statistik məlumatlara nəzər salsaq, görərik ki, Ermənistan tərəfinin Azərbaycanın mülki əhalisini hədəfə alması hələ də davam etməkdədir və mülki əhalimiz arasında qurbanların sayı, təəssüf ki, günbəgün artmaqdadır. Naftalanda 5 nəfərdən ibarət bir ailənin artilleriya atəşinin qurbanı olması faktı, Beyləqanda yenə də artilleriya mərmisinin mülki şəxslərə məxsus yaşayış evinə düşməsi nəticəsində 2 bacının həlak olması Ermənistanın 27 il davam edən ”beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi” üzrə fəaliyyətinin davamıdır.

### *“53-cü maddə mülki obyektlərin məhv edilməsini qadağan edir”*



**-İşğalçı Ermənistan tərəfindən mülki obyektlərimiz də ağır artilleriya qurğularından atəşə məruz qalır. Bu barədə nə söyləyə bilərsiniz?**

-Əlbəttə ki, beynəlxalq humanitar hüquq normaları müharibə aparılmasının metod və vasitələrinə münasibətdə də dövlətlərin üzərlərinə bir sıra öhdəliklər qoyur. Belə öhdəliklər kimi mülki obyektlərin hücumlardan müdafiə vasitəsi kimi istifadə edilməməsi, mülki əhalinin yaşaması üçün zəruri olan obyektlərin məhv edilməsi və ya başqa yerə köçürülməsinin qadağan edilməsi göstərilə bilər. Bu öhdəliklər həmçinin ”Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” 1949-cu il IV Cenevrə Konvensiyasında da əks olunmuşdur. Konvensiyanın 53-cü maddəsində qeyd olunmuşdur ki, xüsusi şəxslərə, dövlətə, icmalara, ictimai və ya kooperativ təşkilatlara məxsus olan fərdi və ya kollektiv daşınmaz və ya daşınar əmlakın işğalçı dövlət tərəfindən məhv edilməsi qadağandır. Bu nə deməkdir? Birincisi, bu maddə mülki obyektlərin məhv edilməsini qadağan edir. İkincisi, bu maddə istənilən növ mülki obyektlərin hərbi hədəf olmasının qarşısını almağa yönəlir. Yəni, mülkiyyət formasından asılı olmayaraq (dövlət, bələdiyyə və şəxsi) bütün daşınar və daşınmaz mülki obyektlərin məhvi qadağanedici öhdəlik kimi bu Konvensiyanı imzalayan dövlətlərin üzərlərinə qoyulur.

Eyni zamanda, qeyd etdiyiniz 18-ci maddə də qeyri-hərbi obyekt kimi xəstəxanaların mühafizəsi baxımından mühüm öhdəlik nəzərdə tutur. Həmin maddədə deyilir ki, yaralılara, xəstələrə, əlillərə və zahılara yardım göstərmək üçün yaradılmış mülki xəstəxanalar heç bir halda həmləyə məruz qalmamalı, əksinə, münaqişədə iştirak edən tərəflər onlara hörmət və himayə göstərməlidirlər. Göründüyü kimi, xəstəxanalar xüsusilə həssas obyekt olduğundan, onların himayəsi mülki obyektlərin ümumi mühafizəsini nəzərdə tutan 53-cü maddə ilə deyil, ayrıca maddə ilə tənzimlənir. Lakin, bu da Ermənistanın işğalçı siyasətinin və törətdiyi cinayətlərin miqyasının azaldılmasına heç bir təsir etməmişdir. Belə ki, 1988-1993-cü illər ərzində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 695 tibb müəssisəsi məhv edilmişdir. Erməni vandalizmi təkcə xəstəxanalara hücumlarla bitməmiş, həmçinin, böyük rəqəmli vəhşiliklərlə də müşayiət olunmuşdur. Bütövlükdə 900 yaşayış məntəqəsi, 6 minə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 150 000 ev, 7000 ictimai birlik, 693 məktəb, 855 uşaq bağçası, 85 musiqi məktəbi, 927 kitabxana, 44 məbəd, 473 tarixi abidə, saray və muzey, 40 000 muzey eskponatı, 2670 km. avtomobil yolu, 160 körpü, 2300 km. su kommunikasiyası, 2000 km. qaz kommunikasiyası, 15 000 km. elektrik xətti, 280 000 hektar meşə, 1 milyon hektar kənd təsərrüfatı üçün yararlı torpaq, 1200 km. irriqasiya sistemi və bir çox digər mülki obyektlər erməni vəhşiliyi nəticəsində dağıdılmış və ya məhv edilmişdir. Xocalıda, Qaradağlıda baş vermiş erməni vəhşilikləri, dinc əhaliyə qarşı soyqırım cinayəti ilə yanaşı, mülki obyektlərin dağıdılmasının ən bariz nümunələri hesab edilə bilər. Hazırda gedən döyüşlər əsnasında da işğalçı Ermənistan tərəfindən mülki obyektlərimiz durmadan hədəfə alınır. Müharibə zonasından kənarda yerləşən Gəncəyə, Mingəçevirə, Xızıya və Abşerona endirilən ağır artilleriya və raket zərbələri Ermənistan hakimiyyətinin Cenevrə konvensiyalarına və bütövlükdə beynəlxalq humanitar hüquq normalarına məhəl qoymadıqlarını bir daha sübut edir.

### *“Ermənistanın işğal etdiyi ərazilərə öz mülki əhalisinin bir hissəsini köçürməsi müharibə cinayəti kimi qiymətləndirilə bilər”*

**-Ermənistan siyasətinin məqsədi Azərbaycanın işğal olunmuş ərazilərində etnik tərkibin dəyişdirilməsinə yönəlib və bu da hərbi cinayət hesab olunur. Bu barədə danışaq...**

-Bəli, tamamilə düzgün qeyd etdiniz. Tarixə də nəzər salsaq, görərik ki, hazırda işğal altında olan ərazilərə erməni əhalisinin köçürülməsi bütün XX əsr boyu davamlı şəkildə həyata keçirilmiş, həmin ərazilərin Ermənistan tərəfindən işğalından sonra isə azərbaycanlı əhalinin tamamilə sıxışdırılıb çıxarılması və erməni əhalisinin tam məskunlaşması baş vermişdir. Bunları ayrı-ayrı beynəlxalq qurumların müşahidələri və hesabatları da sübut edir. Məsələn, ATƏT-in Fakt araşdırıcı missiyasının ”Dağlıq Qarabağ ətrafında işğal olunmuş Azərbaycan ərazilərində vəziyyətə dair” 28 fevral 2005-ci il tarixli hesabatında göstərilmişdir ki, bu hesabatda müzakirə olunan və əhalisi ilə Fakt araşdırıcı missiyanın söhbət apardığı ərazilərdə yerləşdirməyə dair rəqəmlər aşağıdakı kimi hesablanıb və ya birbaşa olaraq müşahidə edilib: Kəlbəcər rayonunda təxminən 1500 nəfər; Ağdam rayonunda 800-1000 nəfər; Füzuli rayonunda 10 nəfər; Cəbrayıl rayonunda 100 nəfər; Zəngilan rayonunda 700-1000 nəfər; və Qubadlı rayonunda 1000-1500 nəfər. Beləliklə, məskunlaşan şəxslərin sayı barədə Fakt araşdırıcı missiyanın gəldiyi nəticələr yerli hakimiyyət orqanları tərəfindən təqdim olunan və sayı daha yüksək göstərilən əhali sayı ilə uyğun gəlmir.

*“Ermənistanın işğal etdiyi ərazilərə öz mülki əhalisinin bir hissəsini köçürməsi müharibə cinayəti kimi qiymətləndirilə bilər”.*

Təbii ki, bu proses hazırkı dövrədək də davam etdirilir. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatlarına görə, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə 8500, Laçına 13000, Kəlbəcərə 700, Zəngilana 520, Cəbrayıla 280 nəfər olmaqla, cəmi 23000 nəfər şəxs qeyri-qanuni olaraq məskunlaşma üçün köçürülmüşdür.

Ermənistanın işğal etdiyi ərazilərə öz mülki əhalisinin bir hissəsini köçürməsi bu mənada müharibə cinayəti kimi qiymətləndirilə bilər. Bayaq qeyd etdiyim ”Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” 1949-cu il Cenevrə Konvensiyasının 49-cu maddəsinin sonuncu hissəsində birmənalı şəkildə qeyd olunur ki, işğalçı dövlət öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə deportasiya edə və ya köçürə bilməz. Bundan başqa, 1949-cu il Cenevrə Konvensiyalarına 1977-ci il tarixli birinci Əlavə Protokolun 85-ci maddəsinə görə, işğalçı dövlətin öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə köçürməsi və ya işğal edilmiş ərazinin əhalisinin hamısını və ya bir hissəsini deportasiya etməsi və ya bu ərazinin hüdudları daxilində və ya hüdudlarından kənara köçürməsi bu Protokolun ciddi pozuntusu kimi nəzərdə tutulmuşdur. Təbii ki, belə hərəkətlərə yol verilməsi müharibə cinayətinin bir tərkib hissəsini formalaşdırır.

**Rövşən Tahir**

## Nazir: Əsgərlərimizin vətənpərvər yetişməsində müəllimlərin əməyi danılmazdır



**Bu gün Vətən uğrunda döyüşən əsgərlərimizin vətənpərvər yetişməsində, onlara milli ruhun aşılanmasında müəllimlərin əməyi danılmazdır.**

Adalet.az-ın məlumatına görə, bunu Təhsil naziri Emin Əmrullayev 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə müəllimlərə ünvanladığı müraciətdə bildirib.

Nazir müəllimlərə müraciətində daha sonra bunları qeyd edib: "Sizi 5 oktyabr - Beynəlxalq Müəllimlər günü münasibətilə təbrik edirəm! Təkcə bu gün deyil, şagirdinizin, tələbənizin uğuruna sevindiyiniz hər gün sizin gününüz, bayramınızdır.

Bu gün Vətən uğrunda döyüşən əsgərlərimizin vətənpərvər yetişməsində, onlara milli ruhun aşılanmasında sizin əməyiniz danılmazdır. Siz sadəcə övladlarımızı öyrətmirsiniz, həm də Vətən üçün layiqli vətəndaş, əsgər yetişdirirsiniz. Bu missiyanı şərəflə yerinə yetirdiyinizə görə Sizə təşəkkür edirəm!

Pandemiya şəraitində sizin zəhmətiniz xüsusilə qeyd edilməlidir. Bu çətin günlərdə fədakar əməyinizə, göstərdiyiniz dəstəyə görə çox sağ olun!"



**Yusif Nəğməkar**

## AZƏRBAYCAN-TÜRK BAYRAĞI

**Məğrurluğu tərkedilməz,**
**Siz sancılan Yurd yenilməz-**
**Ey Tanrısal, vəsfəgəlməz,**
**Azərbaycan,Türk bayrağı.**

**Varlığınız güvəncimiz,**
**Yarlığınız - yar incimiz,**
**Zəfər donlu sevincimiz-**
**Azərbaycan,Türk bayrağı.**

**Ay, ulduz-səmavi dəstə,**
**Bəyazlıq ali al üstdə,**
**Al da, yaşıl da ruh bəstə-**
**Azərbaycan,Türk bayrağı.**

**Atlaz zəmin üstdə qumaş,**
**Qoşa namus, qoşa ardaş,**
**Qoşa sirdaş, qoşa qardaş-**
**Azərbaycan,Türk bayrağı.**

**Mərdlik - əzəl ünvanınız,**
**Arkadaşlıq - hər anınız,**
**Həp birlikdə dalğalanız -**
**Azərbaycan, Türk bayrağı.**

**Birdən yaranan ikilik,**
**İkilikdən doğan birlik,**
**Hər çalarında dirilik -**
**Azərbaycan, Türk bayrağı.**

**Anası bir - əkiz övlad,**
**Birdi əsli, soyu, əlbət,**
**Ey bir millət,iki dövlət -**
**Azərbaycan, Türk bayrağı.**

**Hər zəhmi, zəhmətçiyi bir,**
**Hər rəhmi, rəhmətçiyi bir,**
**Əsgəri, Mehmetçiyi bir -**
**Azərbaycan, Türk bayrağı.**

**Bu vəhdətdən ha yaz, keçməz,**
**Qış adlayıb, ayaz keçməz,**
**Arasından Araz keçməz,**
**Azərbaycan, Türk bayrağı.**

**Totemi-Bozqurd-Göy oğlu,**
**Savaş-yolgöstərən ağlı...**
**Qurd dişi nəzərə bağlı -**
**Azərbaycan, Türk bayrağı.**

**Kəsər söz, ayıq baş, ağ üz,**
**Şərqi-türküsü bir ağız,**
**Kökü Şumer, Şaman, Oğuz -**
**Azərbaycan, Türk bayrağı.**

**Oğuz Qayı boyu doğrul,**
**Süleyman oğlu Ərtoğrul;**
**Ər nəsildən Osmanı bul,**
**Azərbaycan, Türk bayrağı.**

**Alban, Qıpçaq, Hun börküyəm,**
**Şərhsiz bir şərqi, türküyəm,**
**Azərbaycanım - Türkiyəm -**
**Azərbaycan, Türk bayrağı.**

**Biz Türklərız - mərdlər dəsi,**
**"Çadırımız - göy qübbəsi";**
**Bilgə Kağan təntənəsi -**
**Azərbaycan, Türk bayrağı**

**Hürr bəhərindən barınım...**
**Andım, imanım, "Quran"ım,**
**Pak qibləm yönü Turanım -**
**Azərbaycan, Türk bayrağı.**

**Ozandan əzana gələn,**
**Yazandan yozana gələn,**
**Dürüst bir mizana gələn**
**Azərbaycan, Türk bayrağı.**

**Şəhid qanıyla güllənən,**
**Hünər şanıyla dillənən,**
**Çanaqqalada yellənən**
**Azərbaycan, Türk bayrağı.**

**Zaman - zaman zülmü tərk mən,**
**Yer üzündə göyə görk mən...**
**Ulu Səlcuq, Təkə Türkmən -**
**Azərbaycan, Türk bayrağı.**

**Yetirilən - ayparası,**
**İtirilən - xətər yazı...**
**Qarış - qarış qaytarası -**
**Azərbaycan, Türk bayrağı.**

**Zülmətlər biçib, gəldiniz,**
**Sidqən and içib, gəldiniz,**
**Odlardan keçib, gəldiniz,**
**Azərbaycan, Türk bayrağı.**

**Osmanlı, Səfəvi, ayıl;**
**Sultan Səlim, Şah İsmayıl,**
**Çaldıranda barış sayıl...**
**Azərbaycan, Türk bayrağı.**

**Azmı mənəmlik riqqəti;**
**Ötən əyyamlar hiddəti?!**
**Əksliklərin vəhdəti -**
**Azərbaycan, Türk bayrağı.**

**Məhəbbətdir qoynundakı,**
**Suyu, odu, yeli, xakı,**
**Ankara, İstanbul, Bakı-**
**Azərbaycan, Türk bayrağı.**

**Güman yeri Yer bəndimin;**
**Təbrizimin, Dərbəndimin...**
**Hər şah misram, hər bəndimin**
**Azərbaycan, Türk bayrağı.**

**Ağrıdağın ağı zərdi,**
**Ruh nə əkdi - can becərdi,**
**Ərzurumdu, Kəlbəcərdi**
**Azərbaycan, Türk bayrağı.**

**Göydə laylan,Yerdə yer aş,**
**Ulduza dön, günə yaraş,**
**Şuşa,İzmir, Gəncə,Maraş-**
**Azərbaycan, Türk bayrağı.**

**Ağ, Mərmərə, Egey, Xəzər,**
**Qaradəniz - aydın nəzər...**
**Könül - könül, əl - əl gəzər**
**Azərbaycan, Türk bayrağı.**

**Dönməz qəlb - Kövrək "şüşə"li,**
**Həm səkkiz, həm beşgüşəli,**
**Əzəl İmandan rişəli**
**Azərbaycan, Türk bayrağı.**

**Şəhpər qanadlı istiqlal,**
**Təpər inadlı istiqbal,**
**Alın yazım - qədər, iqbal -**
**Azərbaycan, Türk bayrağı.**

**Eeheeyy, şərə uzanan əl,**
**Eşit, bədxah, xəbis əməl,**
**Sarsılmazdır bu tunc təməl -**
**Azərbaycan, Türk bayrağı.**

**Qərib bilmə, nankor yağı,**
**Gelibolu, Qarabağı!...**
**Gözmüzün qarası, ağı**
**Azərbaycan, Türk bayrağı.**

**Ruhu göylər, göyü Göytürk,**
**Bayanı xan, bəyi bəy türk,**
**Mutlu millət, milli, yey türk -**
**Azərbaycan, Türk bayrağı.**

**Qayələnsin, bəyan olsun,**
**Ayələnsin, əyan olsun!...**
**Cahana nur yayan olsun**
**Azərbaycan, Türk bayrağı.**

**Haqqa səslər bölgələri;**
**Qitələri, ölkələri,**
**Gündoğandır kölgələri -**
**Azərbaycan, Türk bayrağı.**

**Baş - başadır miz üstündə,**
**Yeri könül, göz üstündə,**
**Önündəyik diz üstündə-**
**Azərbaycan, Türk bayrağı.**

**Doğma yurdların can səsi,**
**Cümhuriyyət iradəsi,**
**Məslək, amal təntənəsi -**
**Azərbaycan, Türk bayrağı.**

**Sancıl qüdrət dərgahında,**
**Yerin, göyün cinahında,**
**Ucal Tanrı pənahında**
**Azərbaycan, Türk bayrağı.**

# "Yuxu gördüm qəlbi təlaş, Bir uşaqdı gözündə yaş"

**(əvvəli ötən sayımızda)**

*"Məni ən çox kövrəldən mahnı "Yurd həsrəti" adlanan bir mahnım var, odur. Daha çox o mahnını dinləyəndə kövrəlirəm. "Yurd həsrəti" mahnısının sözlərini yuxuda yazmışam. Bir dəfə yuxuda görmüşdüm ki, kürəyi mənə tərəf olan bir uşaq dağıdılmış bir kənddə sönmək üzrə olan bir ocağın başında diz çöküb və Allaha yalvarır. Yaxınlaşdım o uşağa, mənə tərəf dönmədi, qarşısına keçdim, uşaq yenə də mənə baxmadı. Yalnız Allaha dualarını edirdi. Həmin yuxumu şeirə çevirdim". "Ədalət" qəzetinin qonağı hərbi-vətənpərvərlik ruhunda olan mahnılar ilə milyonlarla insanın qəlbinə yol tapan həkim, şair, bəstəkar Şahin Musaoğludur.*

### *"Mahnılarımın əksəriyyəti bayatı-şiraz üstündədir"*

**-Sizi musiqi aləminə "İgid əsgər, möhkəm dayan" mahnısı gətirib. Bu mahnı haqqında nələri söyləyə bilərsiniz?**

-Bu sualı mənə həmişə verirlər. Demək olar ki, bu suala çox cavab vermişəm. Hər dəfə də eyni sözü demişəm, "İgid əsgər, möhkəm dayan" mənim yaradıcılığımın təməl daşıdır. Mən bu mahnı ilə böyük musiqi dünyasına gəlmişəm. Hesab edirəm ki, "İgid əsgər, möhkəm dayan" mahnısı bu qədər populyar olmasaydı, bu qədər sevilməsəydi, o biri mahnıları yazmazdım. Mən "İgid əsgər, möhkəm dayan" mahnısını yazanda fikirləşmirdim ki, sevilim, tanınım. Heç ictimaiyyətə təqdim olunacağını da düşünmürdüm. Mən sadəcə məni narahat edən təəssüratlarımı, anlatmaq istədiklərimi nota köçürmüşdüm. Hər şey belə başladı.

Hərdən mənə elə gəlir ki, bu mahnı məndən də yaşlıdır, heç onu mən yazmamışam. Hərdən də bu mahnını dinləyəndə elə bilirəm ki, premyerasıdır, görəsən, insanlar bu mahnını necə qarşılayacaqlar?! Mahnının sözləri başqa vaxt, musiqisi isə tamam başqa bir vaxtda yazılıb. Sözlərlə musiqinin yazılması arasında təxminən 1 il yarım müddət var. Mahnının sözlərini Şəhidlər Xiyabanında ilk "Şıxov" batalyonu and içib yola düşəndə yazmışam. İndi onların əksəriyyəti həyatda yoxdur, Allah onlara rəhmət eləsin. Qalanlara isə can sağlığı arzulayıram. Onların hər biri Azərbaycan Ordusunun fəxridirlər. Çünki Azərbaycan Ordusu birinci batalyon ilə formalaşıb. Sonradan bu sözləri ki, özümdə götür-qoy edəndə gördüm ki, çox şeyləri yazmaq istəmişəm, amma onları anlada bilməmişəm. Odur ki, mətn üstündə hər gün işlədim, gah sözlərin birini dəyişdim, gah da o birini. Amma yenə də rahat deyildim. Günün birində dedim ki, bu mətnə bir musiqi bəstələyəcəm. Bəlkə, sözlə deyə bilmədiklərimi musiqi ilə çatdıraram. Beləcə musiqiyə müraciət elədim. Onu da deyim ki, mən kiçik yaşlarımda tar dərslərinə getmişdim, tarda Azərbaycan muğamlarını gözəl ifa edə bilirdim, odur ki, musiqi bəstələmək mənə çətin olmadı. Mahnılarımı dinləyənlər bilir ki, onların əksəriyyəti bayatı-şiraz üstündədir. Həmin dövrdə gitaram var idi, gitarda "İgid əsgər, möhkəm dayan" mahnısını bəstələməyə başladım və 4-5 saat ərzində mahnı ərsəyə gəldi. İlk variant ki, var, Şəmistan Əlizamanlı ifa edir, onu bax 4-5 saat içində hazırlamışam. Fikrim mahnını ictimaiyyətə təqdim etmək, tanınmaq deyildi. Özüm üçün üçün yazmışdım, ətrafdakılar da çox bəyəndilər. Sonrada qərara aldıq ki, mahnını Faiq Ağayevə verək. Zəng etdim,



Faiqlə danışdım, həmin dövrdə Faiq ezamiyyətdə idi. Dedi ki, dönəndən sonra bu mahnını ifa edərəm. Bu da 1 ay çəkəcəkdi. Sonra təsadüfən işlədiyim xəstəxanada köhnə dostuma rast gəldim. O dostuma ki, mən onu hərəkat dövründən tanıyırdım. O vaxt elə olmuşdu ki, sonradan mən rayona işləməyə getmişdim və bizim yollarımız ayrılmışdı. Yenidən onu xəstəxanada gördüm. O da heç bilmirdi ki, mən həmin xəstəxanada işləyirəm. Xeyli danışdıq, dərdləşdik, məlum oldu ki, o, Ağdərədə xidmət edir, briqada komandirinin arxa cəbhə üzrə müavinidir. Bir az səhhətində problemlər yaranıb və ona görə xəstəxanaya müraciət edib. O zaman 1992-ci il idi. Yenidən dostlaşdıq, sonradan tez-tez görüşməyə başladıq. Belə görüşlərin birində bu mahnıdan söz düşdü və mahnı da onun çox xoşuna gəldi. Bu elə bir dövr idi ki, "Dağlıq Qarabağ müharibəsi" mövzusunda bəstəkarlarımızın yalnız bir əsəri vardı. O da ki, Cavanşir müəllimin "Marş irəli" əsəri. Düzdür, müharibə mövzusunda bəstəkarlamızın böyük əsərləri olub, amma o əsərlər Qarabağla əlaqədar qələmə alınmamışdı, 1991-1945-ci illəri özündə ehtiva edirdi. 90-cı illərdə Yusiflə görüşümüzün birində ki, bu mahnıdan söz düşdü, o, istədi ki, bu əsəri əsgərlərinə öyrətsin. İfanı isə Şəmistana verməyə qərara aldıq. O zaman Şəmistanın da səhhətində problemlər var idi və Yusiflə eyni palatada müalicə alırdı.

Bir neçə gündən sonra söhbət açılanda Şəmistan razı olmadı ki, mən axı müğənni deyiləm. Nəysə, günlər keçdi, Şəmistan sağaldı, xəstəxanadan çıxdı, Yusif tək palatada müalicəsini davam etdirdi.

Dekabr ayının 31-i idi. Həmin günü yaxşı xatırlayıram. Bir də gördüm ki, Yusifin xidməti maşını xəstəxananın qarşısındadır və o, cəbhəyə yola düşür. Baxmayaraq səhhəti imkan vermirdi, amma Yusif yenə də cəbhəyə getdi. Fevral ayında Yusifin şəhid olması xəbərini aldıq. Bu proseslər dövründə Şəmistanla qərara gəldik ki, "İgid əsgər, möhkəm dayan" mahnısını Yusif çox sevirdi, əsgərlərinə oxutdurmaq istəyirdi, ona görə də biz bu mahnını ona ithaf etməliyik. Şəmistan oxudu və mahnı zaman-zaman etibarilə qəlblərə yol tapdı.

### *"Zabitin hərb həyatının "leytenant" rütbəsindən başlaması məni bu mahnını yazmağa sövq etdi"*

**-"Cənab Leytenant", bu mahnının tarixçəsi barəsində danışmanızı istərdim...**

-Bu mahnı mənim xronoloji baxımdan ikinci mahnım deyil. "İgid əsgər, möhkəm dayan" mahnısının ardınca cəmiyyətdəki sevgini görəndən sonra Şəmistan ilə silsilə mahnıları ərsəyə gətirməyə başladıq. "Çağırır Vətən", "Ağ ümid", "Birinci batalyon", "Əsgər Vətən əmanəti" mahnılarını yazdım. Bunların ardınca "Cənab Leytenant" mahnısını ərsəyə gətirdim. Hər bir mahnının öz hekayəsi var, digər mahnılarım kimi "Cənab Leytenant" mahnısı da konkret bir şəxsə ünvanlanmayıb. Həmişə ordumuzu fikirləşmişəm, orada hər hansısa bir əsgəri, zabiti deyil, bütün əsgərlərin, zabitlərin ümumiləşdirilmiş obrazını yaratmağa çalışmışam. Mənim özüm də zabit olmuşam. O zaman Tibb İnstitunu bitirənlər "leytenant" rütbəsi alırdı. Həmin dövrdə leytenant olmağım, bundan əlavə hər bir zabitin hərb həyatının "leytenant" rütbəsindən başlaması məni bu mahnını yazmağa sövq etdi. Məhz həmin o gənc zabitlərimizə xitabən bu mahnını ərsəyə gətirdim. O dövrdə bilməzdim ki, "Cənab Leytenant" mahnısı bu qədər seviləcək. Olur da, Müdafiə Nazirliyinin xətti ilə müxtəlif hərbi hissələrdə görüşlər keçirilir. Həmin görüşlərdə ən azı 2-3 zabit mənə yaxınlaşıb deyir ki, biz bu mahnıdan ilham alıb zabit peşəsini seçmişik. Bundan böyük qürur yoxdur. Düşünün, sənin əsərinin təsiri altında insan həyat yolunu müəyyən edir.

**-Daha çox hansı mahnınızı dinləyirsiniz?**

-Qəribə səslənsə də deyəcəm, mən öz mahnılarıma qulaq asmıram. Çünki onları yazarkən o qədər həmin mahnıların içərisində oluram ki, mənə müəyyən bir müddət lazım olur ki, o mahnılardan uzaqlaşım. Bu mənə tənqidi fikirlərimin formalaşmasına köməklik göstərir, həm də musiqi təfəkkürümü zənginləşdirir. Sözsüz ki, Ordumuz hazırda əks-hücum əməliyyatları aparır və mən tez-tez bu mahnıları radiodan, televiziyalardan eşidirəm. Onları dinləyərkən qəribə bir həyəcan hissi məni bürüyür.

Yaradıcı adamlarda mahnıya münasibət iki yerə bölünür: mahnıyaqədərki dövr, mahnının ərsəyə gəlməsindən sonrakı dövr. Birinci dövrdə sən mahnının sahibisən, o dövrdə istədiyin düzəlişləri edə bilərsən, ikinci dövrdə isə artıq belə bir düzəlişi etmək imkanın yoxdur. Bu mərhələdə ictimaiyyət öz sözünü deyir. Birinci mərhələdə mahnıların üzərində o qədər məsuliyyətlə işləyirəm ki, ictimaiyyətə təqdim etdikdən sonra heç bir prosesə qatılmıram.

### *"Bu mahnını dinləyəndə Xocalıdakı həmin uşaq yadıma düşür və kövrəlirəm"*

**-Mahnılarınızı dinləyərkən kövrəlməmək qeyri-mümkündür. Bu mahnılarda qürur var, sevgi var, məhəbbət var. Onların içərisində hansı sizi kövrəldir?**

-Məni ən çox kövrəldən mahnı "Yurd həsrəti" adlanan bir mahnım var, odur. Daha çox o mahnını dinləyəndə kövrəlirəm. "Yurd həsrəti" mahnısının sözlərini yuxuda yazmışam. Bir dəfə yuxuda görmüşdüm ki, kürəyi mənə tərəf olan bir uşaq dağıdılmış bir kənddə sönmək üzrə olan bir ocağın başında diz çöküb və Allaha yalvarır. Yaxınlaşdım o uşağa, mənə tərəf dönmədi, qarşısına keçdim, uşaq yenə də mənə baxmadı. Yalnız Allaha dualarını edirdi. Həmin yuxumu şeirə çevirdim:

***"Yuxu gördüm qəlbi təlaş,***
***Bir uşaqdı gözündə yaş.***
***Diz çökərək ocaq üstə,***
***Haqq uğrunda dilər savaş"***

Bu sözləri yazdım və sonradan bu sözlərə musiqi bəstələdim. Çox təsirli musiqidir.

O uşaq heç vaxt gözümdən getmirdi. Hər zaman o üzü axtarırdım ki, görüm, kimdir? Sadəcə bir şeyi bilirdim, tanış simadır. Günlərin bir günü o uşağı Seyidağanın çəkdiyi "Xocalı" ilə bağlı kadrlarda gördüm. Hansı ki, o uşağı bizim əsgər qaldırıb göstərir. Hər dəfə bu mahnını dinləyəndə Xocalıdakı həmin uşaq yadıma düşür və kövrəlirəm.

Ermənilər bilməli idilər ki, gün gələcək, zorla qovduqları insanlar geri qayıdacaqlar. Bəli, o gün gəldi, artıq o gün gəldi. Azərbaycan tarixi günlərini yaşayır. Bizə bu şərəfli, qürurlu günləri bəxş edən Ordumuza, əsgərlərimizə, zabitlərimizə təşəkkür edirəm. Bu Ordunun arxasında dayanan, ona dəstək verən xalqıma minnətdarlığımı bildirirəm. Bu Ordu ilə xalqı birləşdirən Dövlətimizə, Dövlət Başçımıza təşəkkürümü bildirirəm. Ordumuz torpaqlarımızı işğaldan azad edir. Allah Ordumuzu qorusun.

**-"Amin" deyib sizinlə müsahibəmi yekunlaşdırıram. Çox sağ olun ki, dəvətimi qəbul etdiniz.**

-Siz sağ olun.

**Rövşən Tahir**

# Türk olmaq asan deyil!

**ABŞ-ın Sitl ştatının fəxri konsulu Gökçenin "Türk olmaq necə bir duyğudur?" mövzusunda yadığı yazını oxudum. Bu şəhanə yazını sizinlə də bölüşürük.**

Əslində çox şeydir Türk olmaq. Türk olmaq Osmanlının borcunu ödəməkdir. Kosova və Bosniyada, Qərbi Trakya və Makedoniyada bilmirəm neçə əsr keçmişdə qalan məsələlərin hesabını verməkdir.

***Türk olmaq Kiprdə, Xocalıda, Anadoluda və Balkanlarda soyqırıma məruz qalıb qarşılığında törətmədiyin soyqırımla günahlandırılmaqdır.***

Türk olmaq millətinə, tarixinə sahib çıxan zaman faşist olmaqdır. Vətəninə, millətinə, tarixinə söyülən zaman demokrat və çağdaş olmaqdır.

**Türk olmaq Avropada sənə xor baxılmaqdır. Atalarımızın bir çox əsr öncə Vyananı boşaltdığı üçün xoş baxılmamaqdır. Sadəcə, boşaltmaq, Napalyon kimi bütün Vyananı yandırmaq yox...**

Türk olmaq Selanikdə Pontus abidəsinin, Vyanada çeynənən Yeniçeri minbərinin və Maltda "Rahibin tapdadığı Türk bayrağı" heykəlinin önündən keçməkdir.

***Türk olmaq çətindir və əziyyətlidir. Üç qitədən dönüb kiçik bir yarımadada qonaq kimi davranılmaqdır. Saysız imperatorluqlar qurmaqdır Türk olmaq.***

Türk olmaq arabaya qoşulan ilk atın Vətənində, ilk yazılı müqavilənin



imzalandığı yurdda, yazının, pulun icad edildiyi, hər qarışından bərəkət fışqıran bu yurdda ayağa qalxmaq üçün xarici sərmayə gözləməkdir.

**Türk olmaq Troyadan bu yana Şumerdən bu yana tarixi yaddaşı, yüksək dəyərləri olmasına baxmayaraq, bir həftəlik yaddaşla yaşamaqdır. Şərqi Romanı da, Qərbi Romanı da yıxıb Yeni Roma olan ABnə girməyə çalışmaqdır Türk olmaq....**

Türk olmaq Mostarda körpüdür, Kərkükdə qaladır, İstanbulda "Kız kulesi", Anadoluda buğdaydır, Çukurovada pambıqdır, Egedə tütün, Qaradənizdə fındıq, Trakyada günəbaxandır...

***Türk olmaq Çanaqqalada ölməkdir. Çanaqqalada ölmədən öncə düşmənə su verməkdir, onun yaralısını kürəyində öz xəstəxanasına daşımaqdır. Düşmənin arxasınca rəhmət oxumaq, qan düşmənindən halallıq istəməkdir.***

Türk olmaq xaraba bir ölkədə zəngin ölkələrin müstəmləkəsini rədd edib taxtadan qılınc və ipdən üzəngi ilə paylaşacaq və sahib olacaq tək varlığı kasıblıq olmasına rəğmən meydan oxumaqdır.

**Türk olmaq əsgərliyə zurna-balabanla yollanmaqdır, heç geri dönməyəcəyini bilə-bilə.**

Türk olmaq ananın şəhid oğlunun arxasınca "bir oğlum da olsun, onu da Vətən üçün göndərəcəyəm" deməyidir. Atanın göz yaşlarını tutaraq tabutuna son dəfə toxunarkən "Vətən sağ olsun" deməyidir.

***Türk olmaq Yunusu bilməkdir, Aşıq Veysəli sevməkdir, Mövlanəni, Hacı Bektaşi Vəlinin bir misrasını oxumasan belə onu ürəyində daşımaqdır.***

Türk olmaq saz dillənəndə, ney üflənəndə, qaval çalınanda ürəyinin dərinlyindəki sızıltını hiss etməkdir, bir də Yəmən türküsündə... Həyatın sənə verdiklərinə nəsib, vermədiklərinə qismət deməkdir. Hər işin xeyirlisinə inanmaqdır və ağlamamaq üçün çox gülməkdən keçinməkdir.

**Türk olmaq Asiyada "qərbli, Avropada "şərqli" deyə reaksiya görməkdir. İrq sözünü bilmədən yaşamaq, yaradılanı Yaradandan ötrü sevməkdir. Şou proqramları ilə dizilər arasında qalsa da, silkələnib üzərindəki torpağı ata bilməkdir.**

Türk olmaq ən zəif günündə belə dünyaya meydan oxumaq, ən dərdli günündə belə hər üfunətin bir şəfəqdə bitəcəyini bilərək təvəkkül etməkdir.

Türk olmaq Anadoluda hər düşən yağış damlasına həmd oxumaq, hər çıxan sünbül üçün şükr etməkdir.

**Türk olmaq mədəniyyətlər məzarlığı Anadoluda dik dura bilməkdir.**

**Çətin işdir Türk olmaq....**

**Dilimizə uyğunlaşdıran**
**Eminquey**

# Erməni terrorçu təşkilatı ümumbəşəri bəladır



*Əvəz Mahmud Lələdağ*
*Şair, dramaturq, publisist*

**Əldə olunan rəsmi məlumatlara görə beynəlxalq aləmdə fəaliyyət göstərilən terror təşkilatları aşağıdakılardır:**

*1.ASALA "Erməni azadlığı uğrunda məxfi erməni ordusu"*
*2.Yeni erməni müqavimət hərəkəti.*
*3.Genosid əleyhinə Komandas təşkilatı.*
*4.Ədalət məhkəməsi.*
*5.Yeni müqavimət hərəkatının məxfi ordusu.*
*6.Qara-aprel günü qruppu.*
*7. 3-cü dəstə təşkilatı.*
*8.Erməni genosidi qisasçıları.*
*9.Erməni gənclər müqavimət qruppu.*
*10. 26 may erməni təşkilatı.*
*11.Oktyabr təşkilatı.*
*12.Şahan-Natoli təşkilatı.*
*13. 9 iyun təşkilatı.*
*14. 24 sentyabr intihar dəstəsi.*
*15.Orli təşkilatı.*
*16.Ümumdünya cəza dəstəsi.*
*17.Erməni Qırmızı Ordusu(EQO)*
*18.Erməni İnqilabi Təşkilatı (EİT).*
*19.Yanikyanın komandası(YK)*
*20.Sentyabr Fransa qruppu.*
*21.Müqəddəs Erməni işi (MEİ).*
*22.17 noyabr Beynəlxalq terror təşkilatı.*

Göstərilən təşkilat və dəstələrdən başqa Azərbaycan Respublikasında iki terror qrupun adı məlumdur.Onlardan biri Amaraz, ikincisi Ayrenardarz-dır.Bu terror dəstələri istər respublikanın daxilində, istərsə də xaricində olan azərbaycanlılara və bütün türk dünyasına qarşı terror aktı törətmək məqsədi güdürlər.

Terror latın sözüdür. Güc, zor tətbiq etmək yolu ilə insanları qətlə yetirmək, ağır bədən xəsarəti ilə yanaşı əzab-əziyyət vermək və s. Müxtəlif iqtisadi-siyasi məqsədlərin yerinə yetirilməsi üçün əvvəlcədən planlaşdırılmış,düşünülmüş, müəyyən maraqlı şəxslərlə, təşkilatlarla razılaşdırıldıqdan sonra planlı şəkildə xüsusi şəxslər tərəfindən həyata keçirilir.

### *Terrorçular vəziyyəti,*

**şəraiti hərtərəfli öyrənib hər ehtimala qarşı rəy yürütməklə ediləcək hərəkət zamanı hansı siyahılardan, sənədlərdən, geyimlərdən, hansı nəqliyyat növündən istifadə etmək, hansı yolia, necaaradan çıxmaq və harada məskunlaşmaq və s. məsələlər dəqiq surətdə planlaşdırılır. Terror məqsədi ilə odlu, soyuqsilah növlərindən, partlayıcı maddələrdən, boğucu: qazlardan, bihuşedici maddələrdən istifadə edilir. Düşunülmüş qaydada yol qəza hadisələri törədilməsi yolu ilə öz planların həyata keçirirlər. Terrorçular lazımi şəxsləri oğurlamaq, girov götürmək, şikəst etmək və s. məqsədlərinə nail olurlar. Terror siyasi xarakter daşıyan, qəsdən edilən cinayət əməlidir. İlk növbədə terror aktları hakimiyyət orqanları nümayandələrinə, ictimai-siyasi xadimlərə, mühüm əhəmiyyət kəsb edən elm xadimlərinə qarşı törədilir, Terrorçular qeyd olunan şəxslərin iş yerlərini partlatmaq, yandırmaq, əmlaklarına, ailə üzvlərinə zərər vurmaq va s. hərəkətlərlə məşğul olurlar. Terror aktlar çox vaxt dövlət çevrilişi məqsədi üçün də taşkil edilir. "Daşnak" partiyası yaranan gündən terrorçuluğu əsas mübarizə metodlarından biri hesab edir. Dinc, strateji mübariz metodunu qəti rədd edir. Daşnak partiyasının yaradıcılanndan biri M.Vartanyan yazır: "Bəlkə də heç vaxt, heç yerdə, "Erməni Inqilabi Federasiyası" kimi terrorçuluq sahasində zəngin tacrübəsi olan ikinci bir inqilabi partiya yoxdur. Nə rus narodovçuları, nə də italyan karbonirleri bu sahədə bizə çata bilməz". EİF-si özünün daha çətin şaraitdə fəaliyyət göstərməsinə baxmayaraq ictimai aktları həyata keçirmək üçün ən yaxşı terrorçular, silah, bomba, xəncər işlətməklə çoxlu sayda ustalar yetişdirmişdir.**

Erməni terrorçuları yalnız türk tayfalarına qarşı deyil, eyni zamanda erməni xalqının mənafeyini güdməyən ermənilərə qarşı da terror aktı tətbiq edir.

### *Bu əməliyyatın həyata*

keçirilməsi üçün 1919-cu ildə İrəvanda keçirilmiş erməni nümayəndələrinin 9-cu ümumdünya qurultayında aktlarının aparılması barəda xüsusi qərar qəbul edilmişdi. Onun icrası əslən Türkiyə ermənisi olan Hagolder Hakopyan adlı şəxsə tapşırılmışdır. Qəbul edilmiş qərara əsasən bu şəxs terrorçuluq fəaliyyetinə və terrorçulara rəhbərliyə 1920-ci ildə başlamalı idi. Ləqəbi "Şahan Natoli" olan H.Hakopyan fəaliyyətə bir qədər sonra başlayır. Onun təşkiliatçılıq fəaliyyəti 1921-ci ilin mart ayının 19-da Berlin şəhərində Türkiyənin siyasi və ictimai xadimi, daxili işlər naziri, sonralar müdafiə naziri olmuş Talat Paşanın Soqolan Terilyan adli bir terrorçu erməni tərəfindən qətlə yetirilməsi ilə başlanır. Berlində yaşayan erməni qatili Karen Papazyan Şahan Natolinin əməliyyatı barədə belə yazır: "Türkləri süzgəcdən keçirmək borcumuzdur".

Berlində məhkəməyə verilmiş qatil Soqolan Terilyan ermənilərin küllü miqdarda hakimlərə verdikleri rüşvət nəticəsində bəraət qazanır. Tarixin səhifələrində hər hansı hadisə nisbətən sonra aşkara çıxsa da müəyyən malumatlar əldə etmək olar. Tələt Paşanın qətlə yetirilməsi ilə əlaqədər olaraq belə bir rəsmi məlumat 1989-cu ildə Amerikada nəşr edilən "Neşnl qioqrafin" jurnalinda bir yazı nəşr olunub. Jurnalist Belqrad şəhərində bir erməni ilə tanış olur. Söhbət zamanı siyasi məsələlərdən danışarkan aydın olur ki, Talat Paşa'nın qətlə yetirən bu ermənininin atası olub. Jurnalist erməniyə belə bir sualla müraciət edir. "Bu hərəkəti necə qiymətləndirmək olar?" Erməni ona belə cavab verir: "Mən atamın bu hərəkəti ilə fəxr edirəm".

Ermeni terrorçulan həmin illərdə yaranan Azerbaycan Demokratik Cümhuriyyetinə də düşmən kəsilirlər. 1921-ci ilin yay aylarında Fətəli xan Xoyskini, Həsən bəy Ağayevi, Firuddin bəy Köçərlini qətlə yetiriblər. 1922-ci ilin avqust ayında Əfqanıstan sərhədləri yaxınlığında məşhur türk sərkərdələrindən birini - Ənvər Paşanı qətlə yetirmişlər, Azərbaycan Demokratik Cümhuriyyəti yaradılandan sonra Spitak məktəbinin yetirmələri-ermənilər pis əməllər törətmək üçün ad və soyadlarını dəyişirlər. Adlarını, soyadlarını dəyişmiş ermənilər Bakıya gəlir, erməni xalqına xas olan murdar əməllərini həyata keçirirlər. Əsil vatandaş, əsil millət, asil insan soyadını, adını dəyişməz. Ermənilər bu hərəkəti yalnız pis niyyətlər məqsədi üçün, insanlara xəta yetirmək üçün edirlər. İlk növbədə bele hərəkəti terrorla məşğul olmaq məqsədi ilə planlaşdırırlar. O zaman Bakıda qalmış erməni terrorçuları Azərbaycan Demokratik Cümhuriyyətinin rahbərlərini mahv etmək, gizlində terror aktlarını törətmək üçün fəaliyyətə başlayırlar. Yeni yaradılmış Azərbaycan Höküməti Nazirlər Sovetinin sədri Nasib bəy Yusifbəyoğlunu qətlə yetirmək istəyirlər, lakin əməliyyat baş tutmur. Qatillər isə tez aradan çıxırlar. Bu məsələ ilə Respublika cinayət axtanşı şöbəsinin rəisi Fətəli bəy meşğul olur. Məlum olur ki, terror aktını hazırlayan və onu yerinə yetirmək istəyən şəxslər erməni daşnak partiyasının üzvləri Aram Budaqyan və başqalan olmuşdur.

***Fətəli bəyin topladığı dəqiq məlumatdan aydın olur ki, Bakıda yaradılan terror teşkilatının fəal üzvlərindən Qoharyan, Ambarsumyan, Mirzoyan, Mikoyan, Şahnazərov ve s. təcili sürətdə Azərbaycan Demokratik Cümhuriyyətinin dövlət xadimlərini, görkəmli adamlarını terror vasitəsi ilə məhv etmək planını çəkmişdilər.***



### *1921-ci il yanvar ayının axırlarında*

Nəriman Nərimanovun göstərişi ile Almaniyaya neft avadanlığı almaq üçün göndərilən Behbudağa Cavanşir yolüstü İstanbulda olarkən Malta adasında sürgündə olan dostu Əhmədbəy Ağayevə baş çəkmək üçün oraya gedir, onun evində olur. O gecə evdən çıkarkən daşnak partiyasının üzvü Tolpakyan onu qətlə yetirir. 1922-ci il iyun ayının 25-də Türkiyənin ictimai dövlət xadimi Tiflis şəhərində məsul şəxslərin gözü qarşısında 2 erməni terrorçusu Petros Qarpuqasyan və Ərdəşir Qevorkiyan tərəfindan qətlə yetirilmişdi.

***Elə həmin il İtaliyanın Roma şəhrində dövlət xadimi Seyid Həlimi öldürülmüşdür. Bir az sonra 22-ci ildə Türkiyənin xarici işlər üzrə dövlət nümayəndəsi Bəaddin Şakir onunla birlikdə olan Camal Əzimi erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir. Əməliyyata başçılıq edən Şahan Natoli Haqolder Hakoryan 30-cu illərə qədər terror aktlarının törədilməsində fəal olur və terrorçulara başçılıq edir. 1930-cu illərdə sovet Ermənistanını təriflməyən, ona yaxşı münasibət bəsləməyən erməni din və dövlət xadimlərini də terrorçular məhv etmişlər.***

Əldə olan rəsmi məlumata görə Beynəlxalq aləmdə faliyyət göstərən ən qorxulu erməni terror təşkilatı "Asala"nədir. Əlləri minlərlə günahsız insanın qanına batmış "Asala" dünya terrorist təşkilatlarının ən amansızı, ən qəddarıdır. Erməni ideoloqlan onun eybəcər simasını göstərmək üçün müxtəlif vasitələrə əl atırlar. "Daşnaksyutun" partiyasının son maqsədi nədir? Sərsəm bir ideyanın məsulu olan özlərinin "dənizdən-dənizə" dövlətlərini yaratmaq, həm də bu alçaq niyyəti ən çox Azərbaycan və Türkiyə ərazisində həyata keçirməyə çalışmaqdır.

### *"Asala"nın diqqəti həmişə Azərbaycan və Türkiyəyə yönəlmiştir*

***30-dan çox türk vətəndaşının, 23 türk diplomatının, Bakıda sərnişin avtobusunun, Tiflis-Bakı,Tiflis-Ağdam-Bakı marşrutlarının, Moskva-Bakı sərnişin qatarlarının, metro qatarlarının partladılması və dünyanın müxtəlif kitablarını əhatə edən digər terror aktları bu teşkilatın necə böyük maliyyə imkanlarının olmasından xəbər verir. Beynəlxalq hesablamaya görə keçən əsrin əvvəlindan başlayaraq bu vaxta qədər rəsmi qeydiyyatdan keçmiş terror aktı barədə olan məlumat 200-dan çoxdur.***

"Krung terror təşkilatı Hamlet Qaçaryanın başçılığı altında hərəkət edən onun yaxın dostu Qriqoryan Serjik Xorenoviç Azərbaycan ahalisinə qarşı misli görülməmiş vəhşiliklər, terror aktları törətdilər. Arası kəsilmədən heç bir təsiri olmayan Qafan rayonu ərazisindən tutmuş Füzuli.Zəngilan rayonlarının yüzlərlə dinc əhalisini məhv etdilər. Çoxlu sayda evləri xaraba qoydular, əllərinə keçən insanlara qarşı qeyri-insani cəzalar verdilər. Hamlet Koçaryan, Serjik Qriqoryan və s. ələ keçsələr də tez bir zamanda azad olundular. 1988-ci ilin fevral da Şuşa şəhərinə gələn su kəmərini partlatmaq istəyən terrorçular yaxalandılar. Şuşa təcridxanasında saxlanılan terrorçu Artur Ayrapetyan dindirildiyi zaman qeyd edib ki, biz təqsirkar deyilik. Biz Moskvada olarkən siyasi büronun bir neçə üzvü ilə görüşdük. Bizə dedilər ki, gedin işinizi görün.Tezliklə "Arsak" sizin olacaq. Bu barədə mətbuatda xəbər verilmişdir ("Vışka" qəzeti 1991-ci il).

### *Əgər bu terror aktlan*

dəqiq hesab olsaydı və dünya ictimaiyyətinin nəzərinə çatdırılsaydı bunlar da beynəlxalq terrorlar hesabatına düşərdi. Əfsuslar olsun ki, mətbuat xəbər versə də, canlı şahidlər bunu təsdiq etsələr da, o zamankı dövlət aparatına soxulmuş ermənilər, ermə- nipərəst vəzifəli şəxslər bu dəhşətli faktları dəqiqləşdirib respublika ərazisindən kənara çıxara bilmədilar.

Masa üstü örtülü qaldı. Bu illərdə dəfələrlə erməni terrorçulan Noraşen-Bakı istiqamətində hərəkət edan 69№-li minik qatarında partlayış törədən terrorçular yaxalandilar. Bir nəfər terrorçu erməni qatarı partlatmaq istədiyi vaxt bomba əlində partlayaraq özü terror qurbanı oldu. 1989-cu ilin yayında Ağdam-Şuşa istiqamətində hərəkət edən sərnişin avtobusu partladı. Naticədə bir neçə ölən və ağır yaralanan oldu. Terror aktı barədə sadəcə olaraq mətbuatta qısaca məlumat verildi. Yenə həmin ilin yayında Bakı-Tiflis marşrutu ilə işləyən "Ikarus" avtobusunun oturacağı altında qoyulan bomba Yevlax rayonunda partladı, nəticədə ölən və yaralanan oldu. 1990-cı ilin avqust ayının 16-da Füzuli şəhərində Köndələn çay üzərində tikilən rayonun mərkəzinin Dövlətyarlı kəndi ilə birləşdirən körpünün partladılması Füzuli-Ağdam Mingəçevir-Yevlax və digər istiqamətlərdə işləyən nəqliyyat vasitələrinin hərəkətini çətinləşdirdi. Elə həmin vaxt Qarqar çayının üstündəki körpü də partladıldı. 1990-cı il oktyabrın 8-də Şəmkir-Gəncə yolunun 22 km-də Tbilisi Ağdam istiqamətində avtobus partladıldı. 20 nəfər qadın-uşaq həlak oldu. Terrorçular ələ keçmədi və terrorçuların ələ keçməməsi işi gündən günə çətinləşdirirdi. 1990-cı ildə Gəncə şəhərində polis nəfərləri tərəfindən Tiflisə gedən avtobusda yoxlama aparıldı. Bir nəfər saqqallı şübhəli şəxs yaxalanır. Təmiz azerbaycanca danışan bu şəxsi hətta buraxmaq da istəmişdilər. Lakin sərnişinlər onun erməni olmasını bilirdilər. Yoxlama zamanı istintaqa məlum oldu ki, 45-50 yaşlı bu şəxsdan 55,4 q nəşə, bir ədəd F1 markal al qumbarası tapılır.

### *Məlum olur ki,*

***bu, həqiqətən, Gəncə şəhərinin keçmiş sakini Qənnadi Qartaşyan olur. Keçirilən istintaq əməliyyatı zamanı o, öz atasının qəbrini ziyarət etməyə gəldiyini bildirir. Lakin atasının qəbrini göstərə bilmir. Terror aktı törətmək üçün gəlməsi təsdiq olunsa da ona icazəsiz silah və döyüş sürsatı saxladığı üçün yüngül cəza verirlər. 1990-cı ildə Azərbaycan Respublikasının Qazax rayonunda Baganis-Ayrım kəndində erməni terrorçularının törətdikləri vəhşiliklər Azərbaycan tarixində qara xətlə qalacaq. Vəhşi terrorçular gecə saat 3-də silahlı dəstə ilə kəndə hücum edib 12 evə benzin töküb odlamışlar. Yandırılanlann sırasında 2 aylıq beşikdə olan uşaq da olur. Kənd tamamilə xaraba qalmışdır. 1990-cı ilin yayında Naxçıvan MR ərazisində dəfələrlə terror aktı törədənlar Naxçıvan Dövlət Vilayət kömitəsinin hüquq şöbəsinin rəisini də qətlə yetirib aradan çıxmışlar. 1990-ci il martin 29-da SSRİ-nin keçmiş prezidenti M.S.Qorbaçovun dünya ictimaiyyəti qarşısında təntənəli and içmə mərasimi vaxtı Azərbaycan Respublikasının ərazisinə soxulan terrorçu ermənilər bir neçə nəfəri qətlə yetirir və 20 nəfəri girov götürürlər. 1990-cı ilin 20 yanvarından həmin ilin may ayına qədər erməni terrorçuları arası kəsilmədən Qazax Xocalı. Gədəbəy, Tovuz, Naxçıvan ərazisində özləri dedikləri kimi "türk ovlamaq" şükran ile onlarca terror aktları törətdilər.***

Həmin ildə xeyli sayda ölənlər, yarananlar, girov götürülənlər oldu. Lakin bu barədə nədənsə dəqiq məlumat verən olmadı. 1990-cı ilin 20 yanvarda 136 nəfər günahsız insanlar məhv edildi.

***1991-ci il noyabrın 20-da Azərbaycan Respublikası ərazisində Martuni rayonunda erməni terrorçuları terefindən terror aktı tarixə acınacaqlı bir səhifə kimi daxil oldu. Azərbaycanın, Rusiyanın, Qazaxıstanın ən görkəmli sülhsevən oğlanları vertolyotla sülh məramlı danışıqları gedərkən, onların uçduqları vertolyot erməni terrorçuları tərəfindən vuruldu. Terror qrupunun üzvləri Mkrtchyan, Pektosyan. Artunyan, Maqdasaryan ələ keçsələr da terrorçu kimi cəzalandırılmadılar. Onlar bir müddət islah əmək kaloniyasında qalandan sonra əsirlərin dəyiş- dirilməsi yolu ilə azad edildilər. Azad edilən terrorçular nə əsir düşənlər, nə də girov götürülənlər idilər.***

### *Qudurmuş erməni vəhşiləri*

havadarlarının köməyi ilə 1992-ci il fevralın 26-da dünyada analoqu olmayan Xocalı soyqırımı törətdilər. Bir gecənin içərisində 613 nəfər qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürüldü. Şəhid olanlann 106 nəfəri qadın, 63 nəfəri uşaq olmuşdur. 8 ailənin nəsli kəsilmişdir. 150 nəfər itkin düşmüşdür. 56 nəfər dünya təcrübəsində qeyd olunmamış xüsusi işgəncə növü ilə gözün bəbəyini bıçaqla oymaq, qulağı, burunu, dili kəsmək, dırnaqların sədəfini kəlbətinlə dartıb çıxarmaq, ətlə dirnağın arasına iynə yeridilmək, ayaqları nallamaq. lüt kürəyə qaynar samovar bağlamaq, qolları qələm vurmaq, sinələrə qızğınla dağ çəkmək, daxili orqanlan diri-diri yandırıb çıxarmaq və s. Xocalı faciəsində 25 nəfər uşaq ata-anasını itirmiş, 230 nəfər valideynlərindən birindən yetim qalmışdır. Bu qanlı cinayət 20-ci əsrdə beynəlxalq terrorizmin mülki əhaliyə qarşı törətdiyi ən dəhşətli əməllərdən biri olmuşdur. Bundan sonra qansızlaşmış erməni quldur dəstəsi 1992-ci ilin may ayının 8-də Şuşanı, 8 gün sonra Laçını işğal etdilər. Əhalisini pərən-pərən saldılar.1993-cü ilin aprelindən başlanan deportasiya oktyabrın 25-də başa çatdı. Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan bölgələri düşmən tərəfindən tarmar edildi. Əhalisi baş götürüb qaçdi. Qaçqınlıq statusu aldı. Bir milyon insan axını üz tutdu qərib qürbət ellerə. Onlar çadırlarda, vaqonlarda, dəyələrdə, zirzəmilərdə dözə-dözə yaşayıb gün keçirirdilər. 20-ci yüzillik bizi əsir yesir elədi. Başımıza müsibətlər gəldi bu yüzillikdə. 1905- ci ildə 10 minlərlə soydaşımiz erməni vəhşilərinin vəhşi caynaqları ile qətlə yetirildi. 1918-ci ildə millətimizin başına olmazın oyunlarını açdılar. Dünyada qeydə alınmamış işgəncə növlərini bizim millətin üzərində tətbiq etdiler. 1920-ci ildə torpaqlarımızı Zəngəzuru, Göyçəni, Dərələyəzi, Zəngibəsər. Ağbaba, Vedini-82 km ərazimizi zəbt etdilər. 1936-1939-cu illərdə ləyaqətli qız və oğullarımızı xalq düşməni damğası ilə məhv etdilər.əsrin yarıdan çoxunu yaşamışam. Hadisələrin canlı şahidi olmuşam. 1945-ci il II dünya müharibəsində rus sovinistləri, erməni millətçiləri "Çorni deyib azərbaycanlılara divan tutması da yaddaşıma həkk olub.

1948-53-cü illərdə 100 minlərlə soydaşlarımızı öz dədə-baba yurdlarından, isti ocaqlarından, bərəkətli bucaqlarından, buz bulaqlardan zorla köçürürdülər. Susuz, heç bir şəraiti olmayan ilan mələşən çöllərdə yerləşdirdilər. Kanal, gölməçə sularını görməyən, isti havaya uyğunlaşmayan insanlar qızdırma, vaba, yatalaq, traxoma, kepçələmə kimi xəstəliklərdən kütləvi sürətdə qırıldılar. 1965-ci ildə daşnak lideri Andronik Ozanyanın 100 illiyi ilə bağlı "genosidi" əllərində bayraq edib 24 aprel Ermənistanda matəm günü elan etdilər. Millətimizə maddi və mənəvi ziyan dəydi. Qərbi Azərbaycandan bütün azərbaycanlıları deportasiya etdilər. 1988-ci ildə Sumqayıt hadisələrini törətdilər.

105 ildir erməni daşnaqları "Genasidi" bütün dünyada nüfuzlu beynəlxalq təşkilatlarda təsdiqlətməyə çalışırlar.Əjdər Xanbabayevin, Afiəddin Cəlilovun, Şəmsi Rəhimovun, Ziya Bünyadovun xəyanət əli ilə qətlə yetirilməsi 20-ci esrin sonlarına təsadüf edir. Əminəm ki, dövlət xadimlərinin qətlə yetirilməsində erməni terror təşkilatının əli var.

**1930-cu illardə Sovet Ermənistanını tərifləməyən, ona yaxşı münasibət bəsləməyən erməni din və dövlət xadimlərini de "Nemezidak" əməliyatı tapşırığın, yerinə yetiren ermeni terrorçuları 1933-cü ildə Nyu Yorkda "Müqəddəs Xaç" adli erməni kilsəsində Sovet Ermənistanına müsbət münasibət bəsləməyən baş keşiş Gevont Toruyanı ibadət zamanı qətlə yetiriblər. Erməni terror təşkilatı ümumibəşəri bəladır.**

# Qarabağın Hacəri: "Rəşadətli Ordumuz Xocalının intiqamını alır"

**Ordumuzun apardığı uğurlu döyüş əməliyyatları düşmən tərəfi hiddətləndirib. Ermənilər əfi ilan kimi axırı olduqlarını bilir, son damla zəhərini sıxaraq günahsız, dinc insanlara qarşı axıtmağı, yeni faciələr yaratmağı qarşılarına məqsəd qoyublar. Beləki, ötən gün gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcəbədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboyun Tapqaraqoyunlu kəndi intensiv artilleriya atəşinə tutulub.**

Hazırda Ağdam rayonunun Quzanlı, Xındırıstan və Ayaq Qərvənd kəndləri artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görüldüyü susmayan artilleriyamızın səsindən bilinir.







Fotoda gördüyünüz bu yer isə İmamqulubəyli kəndinin lap yaxınlığı, Bərdə-Ağdam yolunun üstü, düşmən mərmisinin düşdüyü ərazidir.

Hazırda ən işlək olan Ağdam - Bərdə yolu da ermənilərin hədəfinə düşüb.

Amma riqqətlə deyə bilərik ki, bu mərmi atışları, dağıdıcı həmlələr Azərbaycan xalqının qələbəyə olan inamına, Azərbaycan Ordusunun döyüş əzminə zərrə qədər də təsir göstərmir.

Hamı bir nəfər kimi savaşın bitməməsini, Xankəndidə, Şuşada bayraqlarımızın dalğalanmasını istəyir!

Belə insanlardan biri də hazırda pedaqoq kimi təqaüddə olan Lyüdmilla Ələkbərovadı:

**- Mən bərdəliyəm, 47 ilin müəlliməsiyəm. Amma indi söz tapa bilmirəm, sevincimi ifadə edim. Hər dəfə zəfər xəbəri eşidəndə eləcə gülürəm. Bu yaşımda az qalıram, qol götürüm oynayım. And içərəm ki, həyatımda bir ya iki dəfə belə sevincli olmuşam.**

Bu gün yüz illərdi, yurdumda oturub xalqıma zülüm edən, düşmənçilik aparan, torpağı işğal edən ermənininin cavabı verilir. Kim sevinməz ki...Var olsun Ali Baş Komandan! Var olsun Azərbaycan Ordusu! Var olsun, ordunun, prezidentin güvəndiyi Azərbaycan xalqı! Hamınıza qurban olum!

Tərtər rayonunun Alışarlı kəndindən olan Sücayət xanım müharibə başlayan gündən Tərtərin mütəmadi bombalandığını söyləyir: "Tərtər camaatı təmas xəttində olduğu üçün atəşkəs dövründə, yəni, 27 ildir ara-sıra fasilələrlə bombalanıb, camaatın həm təsərrüfatına, həm evinə ziyanlıqlar olub. Dəfələrlə adi-sadə kənd adamları həyət-bacasında əkin-biçinlə məşğul olarkən mərmilər gəlib düşüb, insanlar həlak olub.

Amma heç kim evindən- komasından kənara getməyib. Elə bu gün də belədi. Tərtərdə hazırda insan itkisi ona görə çoxdur ki, əhali evindən uzaqlaşmır. Mərmilər kəndimizin yaxınlığında partlayır. Yolların kənarında gözləyirik.

Atəş bitən kimi evimə qayıcağam! Mənim canım əsgərlərimizin canından əziz deyil ha...Bala, əsas məsələ odur ki,əsirlikdə olan torpaqların xeyli hissəsi azalıb. Ordumuzu irəli şığıdıqca,





mərmi atışları da səngiyəcək! Allah ordumuza yar-yardımçı olsun.

Qarabağın ağır günlərində isti ocağını soyuq səngərlərə dəyişən, həyat yoldaşı ilə çiyin-çiyinə döyüş yolu keçmiş, qəhrəman qadınlarımızdan olan Səbirə Mahmudovanın sevinci bir başqaydı. Xeyli söhbətləşdik: Əsgərlərimizdən, ermənilərin qoyub qaçdığı silah-sursatdan, igidlərimizin azad etdiyi ərazilərdən. Qəflətən Səbirə Mahmudovaya Xocalı soyqırımı barədə xatirələrini xatırlatdım: "Yadınızdadır, bir dəfə söhbət əsnasında dediniz ki, həmin dövrdə biz ikinci hərbi helikopterdə olmuşuq. Eldəniz Quliyev və daha 2 nəfər çəkiliş aparırdı.

Çingiz Mustafayevin çəkiliş etdiyi ərazidə meyit çox deyildi. Meşədə bizə əl edən, kömək istəyən çox sayda insan, sürünən yaralılar gördük. Bu faciəni gördükdən sonra boynumdakı qara yaylığı açıb özümü boğmaq istədim. Bu gün o günləri xatırlayanda nə düşünürsünüz?"

Səbirə xanım göz yaşlarını saxlaya bilmədi: O günlər biz nələr yaşamadıq, nələr görmədik ki...? Bəli, döyüşçülər yox, siyasətçilər müharibəni bizə uduzdurdular.

Bizim əsgərlərimiz hər zaman döyüş əzmində olublar. Bəzi ağzıgöyçəklərin dediyi kimi, "məğlub əsgər", "qalib əsgər" deyə bir şey yoxdu. Rəşadətli Azərbaycan ordusu var, o vaxt da qəhrəmanlıqlar göstərib, bu gün də qəhrəmanlıq göstərməkdə davam edir.

Bu gün döyüşən oğullar birinci Qarabağ müharibəsi iştirakçılarının, qazilərinin, zabit və əsgərlərin, bir sözlə vətənpərvərlərin övladlarıdır.

Çox təəssüf edirəm ki, 27 il ərzində ürəyi döyüş, savaş, qələbə üçün çarpan bir çox döyüşçülərimiz vəfat edib və Azərbaycan ordusunun tarix yazdığı bu günü görə bilmədi. Ruhları şad olsun!

**Amma əminəm! Şəhidlərimizin də, dünyasını dəyişmiş döyüşçülərimizində ruhu hal hazırda şaddır! O ruhlar düşməndən azad etdiyimiz torpaqların üzərində ordumuzu fərəhlə izləyir. Azərbaycan Ordusu isə Qələbəsini qazanır, tarixini yenidən yazır! Allah qorusun!**

**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

### *Amerikalı analitik: Ermənistanın Azərbaycanın dinc sakinlərini atəşə tutması hərbi cinayətdir*

*Ermənistanın Azərbaycanın dinc sakinlərini atəşə tutması qəddar və qəbuledilməz taktikadır və hərbi cinayətdir, buna görə məsul rəsmi şəxslər sanksiyalara məruz qalmalı, məhkəməyə cəlb olunmalı və təzminat ödəməlidirlər.*

*Bunu Trend-ə amerikalı jurnalist və analitik İrina Tsukerman deyib.*

*Onun sözlərinə görə, Ermənistan bəyan edib ki, guya Azərbaycan tərəfindən dinc sakinlərin atəşə tutulmasına cavab olaraq bu addımları atır:*

*"Bununla belə, Ermənistan heç bir sübut təqdim etmir və qeyd edir ki, cavab olaraq mülki şəxslərə hücum etmək hüququna malikdir. Əgər müəyyən ölkə dinc sakinlərə hücum etməyə başlayırsa, bu, o deməkdir ki, həmin ölkə müharibəni uduzur və digər üsullarla qələbəyə yolu yoxdur".*

*O qeyd edib ki, Ermənistan işğal olunmuş ərazilərin mühüm hissəsi üzərində nəzarəti itirib:*

*"Məğlubiyyəti etiraf etmək simanı itirmək deməkdir. Buna görə də Ermənistan Azərbaycanın insan itkilərini çoxaltmaq üçün hərbi əməliyyatlarını gücləndirir və Bakıya növbəti uğurları qazanmağa mane olacaq beynəlxalq müdaxiləni cəlb etməyə çalışır. Hər kəs Ermənistanın fəaliyyətini olduğu kimi görmədiklər və erməninin yalan axınına aldanmamalıdır".*

Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

№ 112 (2146) 6 oktyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# QƏLƏBƏNİN ADDIM SƏSLƏRİ

**Bu gün hər bir ailə, hər bir ev, hər bir vətəndaş müharibədən, Qarabağdan danışır. Və arxada qalan bu 30 illik zaman kəsiyində ilk dəfədi ki, hər bir azərbaycanlı müharibə və qələbə sözünü eyni istəklə, eyni ürək yanğısı ilə dilə gətirir. Və həm də 30 ildə ilk dəfədi ki, "QARABAĞ", "AZƏRBAYCAN" deyir. Bu sözlər guruldayan topların, yağan mərmilərin, açılan atəşlərin fonunda həm ruh yüksəkliyi yaradır, həm intiqam hissini alovlandırır, həm də qələbənin qoxusunu bizə hiss etdirir. Evinə şəhid gələn ana da, ata da bir gözü ilə ağlayıb, bir gözü ilə gülür. Çünki bu şəhid 30 il gözlədiyimiz qələbənin ilk müjdəsi, ilk daşıyıcısı və ilk yaşadanıdır.**

*Anam, bacım... can yarım*
*Saçına əl uzatma...*
*Sizlə qalır anlarım -*
*Yolumu gəl, uzatma...*

*Ahını bük, at suya*
*Axıb getsin... qurtulsun...*
*Ad da tap qoy, ad, suya -*
*Hərdən bu ad tutulsun...*

*Qaşınızın arası*
*Qoymayın ki, düyülsün...*
*Darıxanda xatirəm -*
*Üstünüzə yüyürsün...*

*Səngərdəki yerimə*
*Güllə dəyməz bir daha!*
*O yerdə olanlardan -*
*Danışmışam... Allaha!*

*... Anam, bacım... can yarım*
*Sizi tez-tez görəcəm...*
*İndi... var qanadlarım -*
*Yuxunuza dönəcəm!..*

Heç də təsadüfi deyil ki, paytaxtın xəstəxanalarında, hospitallarında müalicə alan yaralılarla görüşərkən Azərbaycan Prezidenti, Ali Baş Komandan və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yaralılara şəfa diləməklə yanaşı, onların və bütün əsgərlərimizin rəşadətini xüsusi qeyd etdilər. Ali Baş Komandan bildirdi ki, **"Bizim davamaız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm. Bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik!".**



Bəli, bu bir tarixi gerçəklik və bu bir danılmaz həqiqətdir. 1988-ci ilin fevralından başlayaraq, bu ilin sentyabr ayının 27-ə kimi Ermənistan, onun hərbi-siyasi rəhbərliyi davamlı surətdə Azərbaycanın ərazilərini işğal etmiş, təxribatlar törətmiş, terror aktları həyata keçirmiş, dinc sakinləri yaşayış və mülki obyektləri, hətta sakinlərin mal-qarasını da, əkin sahələrini də atəşə tutmuşdular. Bu ardıcıl təxribatlar, bu faşist siyasəti dünyanın, xüsusilə problemi çözməli olan ATƏT-in Minsk qrupunun, yəni ABŞ, Fransa və Rusiyanın gözləri qarşısında törədilirdi.

İşğalçını yerində oturtmaq, BMT-nin məlum 4 qətnaməsinin icrasını tələb etmək əvəzinə mənasız, heç bir effekt verməyən bəyanatlar, görüşlər, danışıqlarla məşğul olan Minsk qrupu indi, yəni bu ilin sentyabr ayının 27-də ermənilərin növbəti təxribatına qətiyyətli əks hücumla cavab verən və ərazilərini iğaldan təmizləməyə başlayan Azərbaycana qarşı fəaliyyətə keçən, yəni bizi danışıqlar masasına dəvət edən, döyüşü dayandırmaq istəyini dilə gətirən ABŞ, Fransa və Rusiya bu illər ərzində görəsən harda idilər? Nəyi gözləyirdilər? Qardaş Türkiyə Respublikasının dövlət başçısı cənab Rəcəb Tayyib Ərdoğanın da dediyi kimi, **"30 ildir heç bir iş görməyən Minsk qrupu indi hansı haqla Azərbaycandan atəşkəs istəyirlər? Nədən bu günə qədər susublar?".** Doğrudan da çox ədalətli, çox kəskin və məntiqli sualdır. Burda tarixi bir gerçəklik də bir-bir yaddaşımda təzələnir. Belə bir deyim var: **"Sülh istəyirsənsə, müharibəyə hazır ol".**



Bəli, biz problemin sülh yolu ilə həllini istədik. Biz Ali Baş Komandanımızın vurğuladığı kimi, Azərbaycan torpaqlarının dinc yolla, yəni düşmən ordusunun ərazilərimizdən çəkilib getməsi ilə geri qaytarılacağına hər vasitə ilə çalışdıq. Beynəlxalq tədbirlərdə, dövlət başçıları ilə görüşlərdə, BMT-nin tribunasında, Minsk qrupunun həmsərdləri ilə olan söhbətlərdə birmənalı şəkildə ölkəmizin dünyanın qəbul etdiyi sərhədlərinin çərçivəində sülhün təmin olunmasını istədik. Çox təəssüf ki, qarşı tərəf bu istəyi dəyərləndirmədi. Əksinə, imitasiya etdi, danışıqlar xatirinə danışıqlar yolunu tutdu, təxribatlar törətdi və sonda da biz məcbur olub öz haqq işimizi öz ordumuz vasitəsilə reallaşdırmağa başladıq. İndi düşməni müdafiə eləyənlər, ona gizli-aşkar dəstək verənlər, onu silahlandıranlar şoka düşüblər. Çünki bizim bu addımı atacağımızı gözləmirdilər.

Azərbaycan prezidentinin köməkçisi, Prezident Adminstrasiyasının Xarici Siyasət Məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də dediyi kimi, **"Biz başqa bir ölkənin ərazisinə iddia etmirik. Onların ərazisindəki mülki obyektləri, mülki şəxsləri, yaşayış binalarını atəşə tutmuruq. Və bizim başqa bir ölkənin hər hansı şəxsi heyətinə və muzdlu döyüşçülərinə ehtiyacımız yoxdur".**

Bəli, bu gün bütün dünyanın diqqət mərkəzində olan Azərbaycan müsəllək əsgərdir. Hər kəs vəzifəsindən, ictimai-siyasi mövqeyindən, aid olduğu ictimai zümrədən, yaşından asılı olmayaraq, "QARABAĞ" deyir. Hər kəs birmənalı şəkildə Ali Baş Komandanın dünyaya verdiyi mesajı "Qarabağ Azərbaycandı nida!"nı təkrarlayıb. Bu həm də o deməkdir ki, xalq öz Prezidenti ilə, Ali Baş Komandanı ilə birlikdədir. Bu, həmrəylik Vətən naminədir, Vətən üçündür! Bu məqamda Ali Baş Komandanın Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralılarla görüşündə dediyi fikirləri bir daha diqqətə təqdim edirəm. Azərbaycan Prezidenti bildirdi ki, **"Bu gün biz tarixi ədaləti bərpa edirik. Tarixi ədalət! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdı. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Buna bizə haqqımız çatır, bunu edirik və edəcəyik!".**

Düşünürəm ki, bu iqtibasda təqdim etdiyim fikirlərdə ölkə Prezidentinin mövqeyi qətiyyətlə ortaya qoyulub. Bu həm də bütün Azərbaycanın mövqeyidir. Deməli, xalqa iqtidarın, xalqla hakimiyyətin birliyinin bariz nümayişidir. Bax, elə bu birliyi, bu həmrəyliyi görən ermənilər və onların havadarları ona görə yenidən danışıqlara can atırlar, yenidən "atəşkəs" - deyib bağırırlar. Amma artıq sözünü silahı ilə deyən Azərbaycan əsgəri qarşısına qoyulmuş vəzifəni reallaşdırmaqdadı. Azad olunan yüksəkliklər, yaşayış məntəqələri, döyüş meydanında qalan düşmənin silah-sursatı, texnikası göstərir ki, biz Şuşaya yaxınlaşırıq, biz Şuşanın qapısı önündəyik.

Prezidentimizin dediyi kimi, müqəddəs ocağımız olan Şuşa artıq ordumuzla görüşə hazırdır. Biz bu görüş anlarını indi xəyal kimi yox, gürçəklik kimi yaşayırıq.

***Əbülfət MƏDƏTOĞLU,***
***Əməkdar jurnalist***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Memar Əliş bəy Kərəmli

## (Görkəmli memarın xatirəsinə)

**Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha ki, bu görüşü də bizə qismət etdi. Bu dəfə söhbətimizin mövzusu görkəmli Azərbaycan memarı Əliş bəy Kərəmli haqqında olacaq. İlk öncə onu qeyd edim ki, Oktyabr ayının ilk həftəsinin Bazarertəsi günü Beynəlxalq Memarlar Günü kimi qeyd olunur. Cari ildə bu gün 5 oktyabra təsadüf edir. Deməli 5 oktyabr 2020-ci il dünyada Memarlar Günü kimi qeyd olunacaq. Biz də "Yazarlar" jurnalı və "Ustac.az" olaraq bu günə öz töhfəmizi verməyə çalışdıq. Belə ki, Hələ 2018-ci ildən davam edən (21 aprel 2022 - ci ilə qədər davam edəcək) "Kərəmli -700" layihəsi çərçivəsində tərəfimizdən bir sıra tədbirlər həyata keçirilmişdir. Görülən işlər barədə təfsilata keçməzdən əvvəl Əliş bəy Kərəmli haqqında qısa bir məlumat vermək istəyirəm.**

***QISA ARAYIŞ:***

Əliş bəy Sübhan oğlu Kərəmli (Kərimli) - Şirvani (onu Avropada və Rusiyada Şamaxılı Alis kimi də tanıyırlar) 21 aprel 1322 - ci ildə Şamaxıda anadan olmuşdur. İlk təhsilini doğma yurdu Şamaxıda almış və memarlığı özünə məslək edərək, üzünü mədəniyyətin beşiyi sayılan Şərqə tutmuşdur. Onun bu səfəri uğurlu alınır. Dəməşqdə, Şirazda, Təbrizdə gördüyü işlərlə məşhurlaşır və artıq tanınmış memar kimi vətənə dönür.

Az sonra Şimala üz tutur və bu dəfə Krımda Bağçasarayda gördüyü işlərlə diqqət mərkəzinə düşür. Bu işi tamamladıqdan doğma Şamaxıya qayıdan memar az bir müddətdən sonra yenidən Şimala getməli olur və özünün son əsərini - günümüzdə də dünyaca məşhur olan Moskva Kremlini tikib təhvil verir. Elə bu münasibətlə təşkil olunmuş ziyafət zamanı - 22 iyun 1371 - ci ildə Moskvada xaincəsinə öldürülmüşdür. Allah rəhmət eləsin. Ruhu şad olsun.

Qarşıdan gələn 2022 - ci ildə böyük memarın anadan olmasının 700 illi tamam olacaq. Yuxarıda qeyd etdiyim kimi, biz bu tarixi nəzərə alaraq artıq 2018-ci ilin yaya aylarından "Kərəmli -700" layihəsi başlatmışıq və bu gün də nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilir. Mütəmadi olaraq görülmüş işlər barədə mətbuat, elektron media vasitəsi ilə məlumatlar verilir və sosial şəbəkələrdə müvafiq haştaqlardan istifadə etməklə qeyd olunur. Əsas işlərdən biri kimi görkəmli memarın anadan olmasından həlak olana qədər bütün həyatını qısa və yığcam şəkildə özündə əks etdirən "Əliş və Anna" poemasının yazılmasını və ayrıca kitab şəklində bu günə qədər artıq dörd dəfə (iki dəfə paralel olaraq Az-lat və Azərəb qrafikalarında) nəşr olunmasını misal göstərə bilərik. Kitabın Cənubi Azərbaycan da daxil olmaqla bütün Azərbaycan ərazisində yayılması - Təbrizdə, Bakıda, Şamaxıda və ölkəmizin digər şəhər və rayonlarının, ayrı-ayrı təşkilatların kitabxanalarında yerləşməsi təmin olunmuşdur. Bundan əlavə ilk gündən poemanın elektron variantı hər iki qrafikada əsas elektron kitabxanalara yerləşdirilmiş dünyanın internet olan istənilən nöqtəsindən oxumaq üçün əlçatanlığı təmin olunmuşdur. Eyni zamanda tanınmış alim, AYB-nin üzvü, Əməkdar müəllim Kamal Camalovun poemaya haqqında yazdığı geniş təhlil "Əliş və Anna haqqında" adı ilə "Yazarlar" jurnalının xüsusi buraxılışı şəklində ayrıca kitab kimi nəşr olunaraq, yayımlanmışdır. Məncə bu layihə tədbirləri çərçivəsində görülən ən önəmli və yadda qalan iş tanınmış şair-rəssam Şehran Allahverdi tərəfindən görkəmli memarın portretinin yaradılması və onun lazımi ünvanlara çatdırılması olmuşdur. Portret hələlik iki orijinal nüsxədə birincisi (42,5 X 54), ikincisi isə (50 X 74) ölçülərdə olmaqla kətan üzərində yağlı boya ilə çəkilib. "Kərəmli -700" yubiley tədbirləri çərçivəsində qarşıdan gələn Beynəlxalq Memarlar Günü ilə əlaqədar görkəmli Azərbaycan memarı şamaxılı Əliş bəy Kərəmli bir daha anılmış və 42,5 X 54 ölçüdə olan (passport nömrəsi K700PƏbK1N001) birinci portret Şamaxı rayon Tarix-Diyarçünaslıq Muzeyinə, 50 X 74 ölçülü (passport nömrəsi K700PƏbK2N002) ikinci portret isə Azərbaycan Memarlar İttifaqına hədiyyə olunmuşdur. Layihənin ilk günlərindən bu münasibətlə planlaşdırılmış və dəfələrlə təxirə salınmış Şamaxı Dövlət Regional Kollecinin tələbələri ilə görüş məlum məhdudiyyətlər aradan qaldırıldıqdan sonra baş tutacaq.



Bu günə qədər ağızdan-ağıza gəzən şifahi söhbətlərin, Rus, Azərbaycan yazarlarının (mənə məlum olan - bəlkə başqa dillərdə, başqa xalqların da ədəbiyyatında və digər yazılı mənbələrində, arxivlərdə bu barədə məlumatlar vardır) yaratmış olduqları yazılı ədəbiyyat nümunələrinin, publisistik yazıların qəhrəmanı kimi bədii portretlərdən tanıdığımız Əliş bəy Sübhan oğlu Kərəmli - Şirvaninin portretinin yaradılmasını xalqımızın görkəmli oğlunun akademik səviyyədə tanınması yolunda atılmış mühüm addım kimi qiymətləndirir və universitetlərimizin tarix fakültələrinin tələbələrini, aspirantları, doktorantları, onların rəhbərlərini referatlara, diplom işlərinə, eləcə də olduqca müxtəlif səviyyəli elmi işlərə mövzu çeçərkən dərindən araşdırılmağa, tədqiq olunmağa ehtiacı olan bu vacib şəxsiyyəti, onun həyat-fəaliyyətini diqqət mərkəzində saxlamağa çağırırıq. Onu nəzərinizə çatdırıram ki, məzarının yeri dəqiq məlum olmasa da, (bu amil günümüzdə aktual olan mədəniyyətlər fərqi məsələsini bir daha ortaya qoyur - demək olar ki, müasiri, eyni zamanda həmyerlisi olan İmadəddin Nəsiminin həyatı daha faciəli sonluqla Şərqdə - müsəlman torpaqlarında başa çatsa da günümüzədək məzarı Hələbdə qorunub saxlanmışdır.) əlimizdə ölkəmizin hüdudları daxilində və xaricində tam şəkildə qorunmuş və ya qalıqları mövcud olan tikililər, xalq arasında geniş şəkildə yayğın olan şifahi məlumatlar, kifayət qədər zəngin yazılı bədii nümunələr, publisistik yazılar, ən əsası hal-hazırda Qobustan rayonunun Ərəbşalbaş kəndində yaşayan Kərimlilər nəslindən olması kimi araşdırılaraq, dəqiqləşdirilməyə ehtiyacı olan çoxsaylı mənbəələr var.

**Sonda maraqlananlar üçün onu qeyd edə bilərəm ki, görkəmli memarın həyatından bəhs edən "Əliş və Anna" kitabını əldə etmək istəyənlər "Mücrü" Nəşriyyatına, eyni zamanda Bakıda və Sumqayıtda əsas kitab mağazalarına müraciət edə bilərlər. Ən dəyərli nemət olan vaxtınızı bu sətirləri oxumağa sərf edib, sona qədər həmsöhbət olduğunuz üçün minnətdarlığımı bildirirəm. Çox sağ olun.**

**Zaur Ustac,**
**"Yazarlar" jurnalının**
**baş redaktoru,**
**şair-publisist**

## *Azərbaycan Bəstəkarlar İttifaqı dünya musiqiçilərinə müraciət edib*

**Azərbaycan Bəstəkarlar İttifaqı dünya musiqiçilərinə müraciət edib.**

**İttifaqdan bildirilib ki, müraciətin mətnində deyilir: "30 ildən artıqdır, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi davam edir. Erməni faşizminin işğalı nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar dağıdılmış, 1 milyonadək dinc əhali öz dədə-baba yurdlarından didərgin düşmüşlər. Azərbaycanın işğal edilmiş ərazilərində 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə əhəmiyyətli - 119 memarlıq və 173 arxeoloji və 330 yerli əhəmiyyətli - 270 memarlıq, 22 muzey, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi tarix və mədəniyyət abidələri məhv edilib. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq, Ermənistan dövləti Azərbaycan torpaqlarına qarşı işğalçı siyasətini davam etdirir.**

**Azərbaycan mədəniyyətinin, musiqimizin beşiyi sayılan, bütün dünyada məşhur olan bir sıra görkəmli musiqiçilərimizin - dahi Üzeyir Hacıbəylinin, Niyazinin, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Əfrasiyab Bədəlbəylinin, Süleyman Ələsgərovun, Əşrəf Abbasovun və başqaları doğulub boya-başa çatdığı qədim Şuşa şəhəri 30 ildir düşmən tapdağı altındadır.**

**Bu gün Azərbaycan xalqı öz tarixi torpaqlarını düşməndən azad etmək üçün haqq mübarizəsinə qalxmışdır. Azərbaycan bəstəkarları da daima bu mübarizədə fəal iştirak edərək, Vətənin azadlıq mübarizəsinə, Qarabağa həsr olunmuş müxtəlif janrlı əsərlər yaratmışlar. Qocaman bəstəkarlardan tutmuş ən gənc bəstəkarlaradək Azərbaycan Bəstəkarlar İttifaqının bütün üzvləri, o cümlədən, tanınmış bəstəkarlar Polad Bülbüloğlu, Eldar Mansurov, Cavanşir Quliyev, Faiq Sücəddinov, Azad Zahid, Elza Seyidcahan, Vüqar Camalzadə, habelə gənc bəstəkarlar Tural Məmmədli, İlahə İsrafilova, Fərid Fətullayev və b. vətənpərvərlik mövzusunda mahnılar, marşlar yazmışlar və bu gün da yazmaqdadırlar. Bu əsərlər televiziya və radio kanallarında səsləndirilir, kliplər nümayiş etdirilir.**

**Bu günlərdə Azərbaycan Bəstəkarlar İttifaqı şanlı ordumuza Yardım Fonduna 10 min manat ianə köçürərək, öz dəstəyini göstərmişdir.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətlə vurğuladığı "Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" ifadələr bütün dünyaya bəyan edilməlidir.**

**Biz Azərbaycan Bəstəkarlar İttifaqı olaraq, bu bəşəri cinayətləri törədən işğalçı Ermənistan rəhbərliyini və onun havadarlarını lənətləyir, beynəlxalq ictimaiyyətə, xüsusilə, bütün dünya musiqiçilərinə müraciət edərək Azərbaycanın haqq işinə fəal dəstək olmağa, səsimizə səs verməyə çağırırıq!".**

***Rəsmiyyə Heybətağaqızı***



## *Azərbaycan ordusu*

*Yurd-yuvanı necə verək düşmənə,*
*Hər birimiz əsgər olaq Vətənə.*
*İgid oğul boyun əyməz yetənə,*
*Qaçaq düşüb, gözümüzün yuxusu,*
*Marş irəli, Azərbaycan ordusu!*

*Bu dərd, kədər sinəmizə dağ çəkir,*
*Xain düşmən, o yerlərdə qan əkir.*
*Biz susduqca düşmən orda yol çəkir,*
*Dığaların yoxdu hələ qorxusu,*
*Marş irəli, Azərbaycan ordusu!*

*Haqq bizimdir, qalib gələk haqsıza,*
*Gərək şərin gözlərindən qan sıza.*
*Öz yerini biz göstərək qansıza,*
*Orda qalıb bənövşənin qoxusu,*
*Marş irəli, Azərbaycan ordusu!*

*Biz susduqca xain düşmən qudurur,*
*O yerlərdə neçə-neçə yurd durur.*
*İndi düşmən binə salır, ev qurur,*
*Hələ bizə diş qıcıyır çoxusu,*
*Marş irəli, Azərbaycan ordusu!*

*Daha vaxtdır, döyüşlərə atılaq,*
*Vaxt ötüşür, savaşlara qatılaq.*
*O yerləri düşmənlərdən biz alaq,*
*Qalıb orda qəlbimizin yarısı,*
*Marş irəli, Azərbaycan ordusu!*

## *Kukla Teatrı Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib*

**Azərbaycan Milli Ordusunun başlatmış olduğu zəfər yürüşü hər bir azərbaycanlı kimi Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının kollektivini də qürurlandırır, onlarda xalqımızın şanlı zəfərinə böyük əminlik yaradır. Daim Silahlı Qüvvələrin Ali Baş Komandanının, Azərbaycan Silahlı Qüvvələrinin və onun qəhrəman döyüşçülərinin yanında olduğunu bəyan edən kollektiv növbəti addımı ilə də xalqımızın bu haqq mübarizəsinə az da olsa dəstək olmağa çalışıb.**

"Düşmən təxribatının qarşısını almaq və torpaqlarımızı azad etmək üçün öz rəşadətli missiyasını layiqincə həyata keçirən ordumuz qürur yerimizdir" fikrini şüar edən teatr kollektivi həmrəylik göstərərək Silahlı Qüvvələrə Yardım Fonduna 5000 manat vəsait köçürüb.

Sənət ocağının kollektivi ərazilərimizin azadlığı uğrunda birlik və həmrəyliyin nümayiş edildiyi, cəmiyyətə dəstəyinin zəruri olduğu hazırkı zamanda bir daha dövlət başçısı və şanlı ordumuzun yanında olduğunu bəyan edir və Vətən müharibəsində şanlı Qələbəmizə inandıqlarını bildirirlər. Dövlət başçımızın da dediyi kimi, "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

# "Qarabağ torpağını əyilib öpəcəm"

**"Hazırda qürur hissi keçirirəm. Fəxr edirəm ki, bizim belə ordumuz var. Fəxr edirəm ki, bizim belə xalqımız var. Fəxr edirəm ki, ordumuzu, xalqımızı bu cür ruha, bu cür əhval-ruhiyyəyə kökləyən Ali Baş Komandanımız, Prezidentimiz var. Bu gün 90-cı illər deyil, artıq 2020-ci ildir. Güclü ordumuz var, qüdrətli ordumuz var, güclü iqtisadiyyatımız var. Bizim arxamızda ən azından həqiqət və haqq durur. Buna rəğmən biz mütləq qələbə qazanacağıq. Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev dediyi kimi, biz öz bayrağımızı həm Şuşada, həm Xənkəndində, həm Laçında, bir sözlə, bütün Qarabağda dalğalandıracağıq.**

90-cı illəri yadıma salıram, həmin dövrdə mənim 30-35 yaşım var idi, o zaman hakimiyyətdə olanların siyasi fəaliyyətinin qənaətbəxş olmaması səbəbindən biz torpaqlarımızı itirdik. Bu gün isə əminliklə deyirəm, biz o torpaqlarımızı işğaldan azad edəcəyik. Bu gün bizim güclü Dövlətimiz, Ordumuz, Liderimiz var".

Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında xalq artisti Fəxrəddin Manafov söyləyib:

"90-cı illərin əvvəllərində qardaşımın yolladığı humanitar yardımı təyyarə ilə Azərbaycana gətirmişdim. Yaxşı xatırlayıram, təyyarə Azərbaycana keçəndən sonra Binə Hava Limanında onu endirmək istəyəndə ekipajın komandiri mənə yaxınlaşıb dedi ki, Fəxrəddin Manafov, siz söyləyirdiniz ki, bəs bizi xalça falanla qarşılayacaqlar, noldu, heç bizə icazə vermirlər. Dedim, mən elə bir söz söyləməmişdim. O zaman biz təyyarəni Binə Hava Limanına en-



dirə bilmədik, buna icazə vermədilər. Məcbur olduq ki, Qalada qalaq. Həmin vaxt Qalada heç bir yoxlanış yox idi. O dövrdə Xalq Cəbhəsi hakimiyyətdə idi, onlar başqa bir təyyarəni Binədə gözləyirdilər, bizim deyil. Parlamentə müraciət etdikdən sonra, qanunla icazə aldıqdan sonra biz həmin o humanitar yardımı Binə Hava Limanına endirə bildik. Bundan sonra o yardımlar anbarlara yerləşdirildi.

Azərbaycan əsgərləri o zaman da heç kimdən qorxmurdu. Sadəcə o zaman Azərbaycan Ordusunun müasir texnikası yox idi. Bir də xalqın başında duranlar qeyri-peşəkarlar idi. Bu gün artıq həmin dövr deyil. O illəri xatırlayanda yadıma 90-cı illərin pərakəndə düşmüş, başında peşəkar yüksək rütbəli bir zabitləri olmayan ordusu düşür. Ona görə də həmin illəri xatırlamaq istəmirəm.

Bu gün Qarabağa qayıtmaq ümidiyləyəm. İnanıram ki, yaxın zamanda bütün xalqla əl-ələ tutub Qarabağa geri dönəcəyik. Bax o zaman mən Qarabağ torpağını əyilib öpəcəm. Mən buna inanıram.

Hər birimiz bu gün əsgərik və Ali Baş Komandanımızın rəhbərliyi altında işğal olunmuş torpaqlarımızı geri qaytaracağıq. Buna inanıram, bu ümidlə yaşayıram.

**Bunları da qeyd etmənizi istəyirəm, başda Azərbaycan Dövlət Televiziyası olmaqla İctimai TV, CBC, ARB 24, Xəzər TV, ATV və digər kanallarımıza təşəkkür edirəm. Bu kanallara baxıb onların əməkdaşları ilə fəxr edirəm. Son illərdə bu günə qədər belə peşəkar aparıcılar görməmişdim, bunu tam səmimiyyətimlə söyləyirəm. Amma indi şahidi oluram ki, bizim peşəkar televiziya işçilərimiz var. Məlumatlar doğru-dürüst çatdırılır. Bu gün düşmədən qorxmayaraq cəbhə bölgələrimizdə olub insanları məlumatlandıran jurnalistlərimizlə fəxr edirəm. Allah onları qorusun. Allah Ordumuzu qorusun. Allah Azərbaycanımızı qorusun".**

**Rövşən Tahir**

# CƏMİYYƏTDƏ SİYASİ HƏMRƏYLİK

## CƏBHƏDƏ QƏLƏBƏNİN VACİB ŞƏRTİDİR



*Ruhiyyə Məmmədova,*
*"Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyinin sədri*

**Bu gün Azərbaycan tarixinin ən şanlı səhifələri yazılır. Ermənistanın 30 ilə yaxın bir dövrü əhatə edən hərbi təcavüzünə son qoymaq, işğal altında olan torpaqları azad etməklə ölkənin ərazi bütövlüyünü təmin etmək və Böyük Qələbəyə nail olmaq üçün ciddi addımlar atılır. Sentyabrın 27-dən başlayaraq erməni işğalçılarının növbəti təxribatına qarşı bütün cəbhə boyu uğurlu əks-hücum əməliyyatı həyata keçirən Ordumuz düşmənə layiqli cəza verir, xalqımıza sevinc və qürur hissi yaşadır.**

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu, bu gün yüksək döyüş hazırlığına görə dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşmış Azərbaycan Ordusu son bir neçə gün ərzində ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında işğala məruz qalmış əraziləri düşmən tapdağından azad edir, strateji yüksəkliklərdə üçrəngli dövlət bayrağımızı qaldırır. Hər gün cəbhə xəttindən gələn xoş xəbərlər hər birimizi qürurlandırır, əzəl torpaqlarımızın tezliklə işğaldan azad olunacağına inamımızı artırır. Yüksək döyüş hazırlığına, möhkəm maddi-texniki bazaya malik olan Ordumuzun qüdrətini artıran və döyüş ruhunu yüksəldən ən başlıca amil onun xalqla birliyidir. Biz əminik ki, məhz sarsılmaz xalq-ordu-dövlət birliyi Azərbaycanın mənfur düşmən üzərində tam və qəti qələbəsini təmin edəcəkdir.

Bu gün cəmiyyətdə hökm sürəm milli həmrəylik, xalqla iqtidarın birliyi ölkənin siyasi həyatına da güclü təsir göstərməkdədir. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların Ermənistanın genişmiqyaslı təxribatına dair birgə bəyanatı Azərbaycanda siyasi həmrəyliyin parlaq təcəssümüdür. Bu bəyanat həm xalqın, həm də ölkənin siyasi partiyalarının yekdilliklə Prezidentin yanında olduğunu, ölkədə sağlam siyasi dialoqun mövcudluğunu sübuta yetirməklə yanaşı, Azərbaycan hüdudlarında siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulmasına möhkəm zəmin yaradır.

Çox təəssüf ki, özlərini xalqın, millətin yanında olduqlarını göstərməyə çalışan Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirə bilmədilər. Ali Baş Komandanın bu sahədə həyata keçirtdiyi siyasəti dəstəkləməmələri onların qeyri-səmimi olduqlarını, dövlətimizin və xalqımızın çətin və şərəfli günündə birlik və bərabərlik kimi milli çağırışlara məhəl qoymadıqlarını, Vətən müharibəsinə tam etinasız qaldıqlarını sübuta yetirir.

Ermənistanın işğalçı siyasətinə qəti etirazla çıxış edən siyasi partiyaların birgə bəyanatına imza atmamaq təkcə susmaq deyil, həm də beynəlxalq riyakarlığı dəstəkləməkdir. Haqq və ədalət uğrunda savaşda xalqın iqtidar və müxalifət cəbhələrinə bölünməsi qətiyyən yolverilməzdir. Dövlətimizin ədalətli mövqeyi milli maraqlar naminə yalnız bir cəbhədə vahid qüvvə kimi çıxış etməyi, yeganə məqsəd uğrunda döyüşməyi tələb edir.

Unutmaq olmaz ki, düşmən üzərində Qələbəni yalnız milli birliyə və siyasi həmrəyliyə yüksək dəyər verən, dövlətinə və ordusuna güvənən xalq əldə edə bilər.

**Azərbaycan xalqı Ali Baş Komandanın rəhbərliyi ilə erməni faşizminə qarşı qanlı savaşda öz qüdrətli ordusuna güvənir və tam əmindir ki, yaxın zamanlarda üçrəngli bayrağımız illərlə həsrətində olduğumuz Qarabağda və ətraf ərazilərdə əbədi dalğalanacaqdır.**

# HƏLƏ YAŞAMAĞA DƏYƏR...

**İllər ötür. İllər ötdükcə Əli Süleymanovun yeri daha çox görünür.**

İllər ötür. İllər ötdükcə Əli Süleymanov kimi Dədə Qorqud öyüdlü ağsaqqallara, müdrik insanlara daha çox ehtiyac hiss olunur.

İllər ötür. İllər ötdükcə Əli Süleymanov kimi el üçün çalışan, qurub-yaratmaqdan zövq alan, yıxılanın qolundan tutan, dara düşəni dardan qurtaran, ürəyi yaxşılıq etmək eşqilə döyünən xeyirxah adamların həsrətini daha çox çəkməyə başlayırıq.

***Bəli, bu gün Əli Süleymanov kimi qurucu insanlar, çörək verən kişilər, haqqın yanında dayanan haqq adamları azdır, çox azdır.***

Əli Süleymanov Tovuzda kişiliyi yaşadan sonuncu kişilərdən biriydi. 28 yaşından böyük bir təsərrüfata rəhbərlik eləyirdi.O, həm də Böyük Vətən müharibəsi qəhrəmanıydı. Alman faşistlərinə qarşı döyüşmüşdü. Döyüşlərin birində ağır yaralanaraq öz doğma kəndinə - Qovlara qayıtmışdı. O, gecə -gündüz çalışaraq Qovları ən geridə qalmış kənddən, ən müasir qəsəbəyə (şəhərə) çevirən sovxoz direktoru kimi Azərbaycanda tanındı. Bəli, o, ömrünün 40 ildən çoxunu Qovlar kəndini şəhərə çevirməyə həsr elədi və bu istəyinə nail ola bildi. Əli dayı elmə, təhsilə də böyük önəm verirdi. Qovlarda sovxoz-texnikum, texniki peşə məktəbi, musiqi məktəbi, iki tam orta təhsil məktəbi…vardı.

***Vaxt varıydı ki, Qovların adı keçmiş SSRİ məkanında ən yaxşı, ən müasir, ən qabaqcıl kəndlərin sırasında öndə çəkilirdi. Qovlara bir qızıl, 8 bürünc medalın verilməsi də Əli Süleymanovun Qovlara və qovlarlılara göstərdiyi misilsiz xidmətlərin nəticəsiydi.***

Əli Süleymanov 1989-1993-cü illərdə səxavətini silaha çevirən tovuzlulardan biriydi, bəlkə də birincisiydi. Tovuzun alınmaz qalaya çevrilməsində onun da böyük xidmətləri var. Bu barədə çox yazılıb. Yazılanları təkrarlamaq istəmirəm.

Vaxt varıydı ki, Əli Süleymanovla əl tutub görüşmək çoxlarının ən böyük arzusu idi. Vaxt varıydı ki, əmək və müharibə qəhrəmanı kimi adı tarixin ən şərəfli səhifələrinə yazılan Əli Süleymanovun kölgəsinə sığınıb onun gördüyü işlərin yüzdə birini həyata keçirmək arzusu ilə yaşayanlar vardı. Vaxt varıydı ki…Aman Allah, görəsən zəmanəmi dəyişdi, insanlarmı dəyişdi?



Əli kişi haqqın dərgahına qovuşandan sonra elə bil ki, bin-bərəkət də, halallıq da, düzlük də, insanlıq da, kişilik də, mərdlik də…yavaş-yavaş yox olmağa başladı. Haqqın mizan-tərəzisi pozuldu.

Əli Süleymanov haqqın dərgahına qovuşan günü dünyanın son günü olduğunu düşündüm. Düşündüm ki, həyat şirinliyini, yaşamaq gözəlliyini itirdi.

O günü boğazımda ilişib-qalan qəhəri zorla udaraq bu misraları pıçıldadım:

*Xalqın güvəndiyi mərd kişi idi,*
*Yaxşılıq eləmək vərdişi idi.*
*Gördüyü hər bir iş haqq işi idi,*
*Bir kişi köç etdi dünyadan bu gün.*

*O Tovuz elinin görən gözüydü,*
*Haqdan güc almışdı, haqqın özüydü.*
*El bilir, hər sözü kişi sözüydü,*
*Bir kişi köç etdi dünyadan bu gün.*

*Bir ömrün günəşi beləcə batdı,*
*Yumub gözlərini əbədi yatdı.*
*Görəsən, dünyanın sonumu çatdı?*
*Bir kişi köç etdi dünyadan bu gün.*

*Dağlar da boynunu büküb ağladı,*
*Ellər göz yaşını töküb ağladı.*
*Vaqif diziüstə çöküb ağladı,*
*Bir kişi köç etdi dünyadan bu gün.*

…İllər keçdi. Əli Süleymanovun çörəyini yeyib, onun köməyilə ayaq üstə duran, əli çörəyə çatan bəzi adamlar sonradan elə harınlaşdılar ki, gözləri ayaqlarının altını görmədi. Onların ciblərinə haram pullar sel kimi axdıqca, onlar vəzifə kreslosunda əyləşib haram tikə yedikcə haralı olduqlarını da unutdular. Həmin o harınlamış "insancıqlar"ın içində mələk yox, şeytan oturdu və şeytan onları idarə etməyə başladı.

Bəli, nə qədər ki, dünyada Əli Süleymanov kimi kişilər vardı, yaşamağa dəyərdi. Onda dünya da gözəl idi. Onda dünyada bu qədər qudurmuş "insancıq"lar da yox idi, talançılıq da, rüşvətxorluq da, harınlıq da, haramlıq da… Onda iki atın arpasını bölə bilməyənlərə, xalqın cibinə göz dikənlərə, tərcümeyi-halını yaza bilməyənlərə… bir sözlə, "başsız" bəxtəvərlərə vəzifə də verilmirdi. İndi vaxtilə qoyun otaranlar da, qapılarda fəhləlik eləyənlər də…həmin o harınlamış vəzifə adamlarının hesabına Tovuzdan Bakıya gəlib kral ömrü yaşayırlar.

***İndi hər şey dəyişib. İndi Əli Süleymanov kimi kişilər də yoxdu. Amma var. Və nə yaxşı ki, var. Bu mərd və xeyirxah insan, işıqlı ziyalı Talıb Süleymanovdu - Əli kişinin oğludu. O, həm də Azərbaycanın ən ziyalı və vətənpərvər oğullarından, iqtisadçı alimlərindən, biridi. O, həm də Tovuz Ziyalılar Cəmiyyətinin sədridi. Və nə yaxşı ki, Əli Süleymanovun xeyriyyəçilik ənənəsini, ağsaqqallıq missiyasını Talıb müəllim şərəflə davam etdirir. Bəlkə buna görə də hələ dünyanın sonu deyil. Bəlkə buna görə də hələ yaşamağa dəyər.***

Əli Süleymanov 12 ilə yaxındır ki, haqq dünyasındadır. Amma bir gün də unudulmayıb, həmişə böyük hörmətlə yada düşür. Mən o böyük insanı, o böyük azərbaycanlını tez-tez xatırlayıram. Axı onu unutmaq mümkün deyil. Onu istəsələr də unuda bilməzlər. Təkcə bir faktı deməklə fikrimdə haqlı olduğumu bildirmək istəyirəm.

Əli Süleymanov ötən əsrin yetmişinci illərində Zəyəm çayından - 20 kilometrlik məsafədən Qovlara içməli su çəkdirib. Həmin sudan təkcə



qovlarlılar deyil, Köhnəqala, İbrahimhacılı, Qovlarsarı kənd adamları da bu "durnagözlü bulaqdan" istifadə eləyir. Və yüzlərlə ailə hər gün bu sudan istifadə etdikcə Əli Süleymanova Allahdan rəhmət diləyir, onun müqəddəs ruhuna duaçı olduğunu bildirir.

…Bu sudan yay aylarında, eləcə də Bakıdan kəndə gələndə mən də istifadə edirəm. İndi Bakıdayam. Amma kənddə olarkən ömür-gün yoldaşımın dediyi sözlər hər gün yaddaşımda əks-səda verir: - Ruhun şad olsun, Əli dayı! - O, hər səhər bu sözləri deyərək nədənsə göy üzünə baxırdı.

***Göy üzündən günəş nur səpələyirdi. Mən də günəşə baxaraq düşünürdüm: - Nə qədər ki, günəş nur saçır, Əli Süleymanov da unudulmayacaq, məhəbbətlə yada düşəcək, əziz xatirəsi yad ediləcək. - Sonra yoldaşım bir ovuc su içərək belə deyirdi: - Allah Talıb müəllimin ömrünü uzun eləsin. - Bu sözləri yüzlərlə ailədə hər gün eşitmək mümkündü. Bax, budur həyatda savab qazanmaq. Bax, budur kişilik, budur insanlıq, budur xalqın qayğısına qalmaq. Bax, budur insanlara və insanlığa xidmət etmək.***

Nə yaxşı ki, dünyada Talıb Süleymanov var. O, vətənpərvərliyin, insanlığın, şəxsiyyətin əsl nümunəsi, nümayəndəsidir. O da atası kimi insanlara çörək verir, iqtisadçı alim kimi elmə, müəssisə rəhbəri kimi xalqa xidmət edir. O, hər zaman könlünün qapısı üzümüzə açıq olan, dayağımız, fəxr yerimizdi. O, işıqlı ziyalıdı. İşıqlı ziyalı isə hardan baxsan görünən adamdı. O, ünsiyyəti çox güclü olan adamdı. İstər yaşlı olsun, istər cavan olsun, istər fəzolə olsun, istər nazir olsun, o dəqiqə onunla araya körpü salır, gözəl söhbət eləyir. Söhbətindən doymaq olmur. Saatlarla onu dinləmək istəyirsən. Mən fəxr edirəm ki, doğma Tovuzda şəxsiyyəti ilə tanınan və sevilən onun kimi bir ziyalı yaşayır.

Ona görə də hələ yaşamağa dəyər. Və nə qədər ki, həyat var, Süleymanovlar da var. Onların haqdan yanan ocağı həmişə gur yanacaq və həmişə Süleymanovların işığına üz tutub gələnlər olacaq, Süleymanovlar ocağının istisinə qızınanlar olacaq.

Tanrı Talıb Süleymanov kimi ziyalıları, el qədrini canından əziz bilənləri, ürəyi xalq üçün, Vətən üçün döyünən mərd kişiləri qorusun.

Talıb müəllim nadir hesab etdiyim insanlardan biridir, böyük ürək sahibidir. Hər dəfə onu böyük hörmətlə xatırlayanda istər-istəməz göy üzünə baxıram. Göy üzü çox genişdir.

Göy üzündə günəş də yerləşib, Ay da, saysız-hesabsız ulduzlar da. Talıb müəllimin qəlbindəki genişliklə, səma genişliyi arasında bir yaxınlıq olduğunu hiss edirəm. Onun insanlara təmənnasız yaxşılıqları dediyimə ən yaxşı sübutdur.

**Tanrı dost fədakarı, ağsaqqal xidmətkarı, millət sevdalısı, Vətən ziyalısı Talıb Süleymanovu bizə çox görməsin.**

**Amin.**

**Vaqif İsaqoğlu**

## Qara Qarayevdən orduya maddi dəstək





**Millinin və "Qarabağ"ın üzvü Qara Qarayev Silahlı Qüvvələrə Yardım Fonduna yardım edib.**

Qol.az-ın xəbərinə görə, 28 yaşlı futbolçu fonda 10 min manat köçürüb.

Qeyd edək ki, daha əvvəl "Zirə"nin baş məşqçisi Rəşad Sadıqov fonda 50 min, millimizin və "Qarabağ"ın kapitanı Maksim Medvedev isə 10 min manat pul köçürüb. Əlavə edək ki, Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb.

## "Bakıda insanlar çox mehribandırlar"



**"Azərbaycana öyrəşmə çalışıram, burada hər şey ürəyimcədir".**

Qol.az xəbər verir ki, bu sözləri "Səbail"in qvatemalalı qapıçısı Nikolas Hagen ölkəsinin mətbuatına müsahibəsində deyib.

Bakıdakı durumu ilə bağlı danışan 24 yaşlı qolkiper buradakı insanların mehriban olduqlarını bildirib: "Bakıda müxtəlif mədəniyyətə malik insanlar var. Onlar istiqanlı və mehribandırlar. Sizə özünüzü evinizdəki kimi hiss etdirirlər. Sanki illərdir bu ailənin bir parçasısan. Hamı ilk gündən çox səmimi görünür və sənə kömək etməyə çalışır".

Qeyd edək ki, Hagen bu yay ölkəsinin "Munisipal" klubundan "Səbail"ə keçib.

## Terim oyun bitmədən meydanı tərk etdi



**Türkiyə Superliqasının 4-cü turunda ötən gün keçirilən "Kasımpaşa" - "Qalatasaray" oyunu bitmədən qonaqların baş məşqçisi Fatih Terim meydanı tərk edib.**

Qol.az xəbər verir ki, 67 yaşlı mütəxəssis hakimlərin işinə etiraz olaraq bu addımı atıb. Terim baş hakim Cüneyt Çakırın 0:1 hesabı ilə uduzduqları oyuna artırdığı vaxtın azlığından şikayət edib.

Qeyd edək ki, "Qalatasaray" 4 oyuna 7 xalla 4-cü pillədə qərarlaşıb.

## "Qarabağ"ın rəqibində koronavirusa yoluxma

**"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki rəqibi "Makkabi"də (Təl-Əviv) koronavirusa yoluxma aşkarlanıb.**

Bu haqda klubun sayı məlumat yayıb. Bütün futbolçulardan götürülə test nümunələrinin nəticəsi neqativ çıxsa da, klub əməkdaşlarından 1-nin virusa yoluxduğu məlum olub. Sözügedən şəxs dərhal karantinə alınıb.

Qeyd edək ki, "Qarabağ" 22 oktyabr Avropa Liqasının qrup mərhələsinin ilk matçında səfərdə "Makkabi" ilə qarşılaşacaq. Komandalar arasında ikinci görüş 3 dekabr Bakıda keçiriləcək.

## "El Klassiko"nu buraxa bilər





**"Barselona"nın futbolçusu Jordi Alba zədələnib. Qol.az xəbər verir ki, ispan müdafiəçi La Liqanın 5-ci turunda "Sevilya" ilə matçda (1:1) sağ ayağının bud nahiyəsindən zədə alıb. Onun bərpa müddəti barədə məlumat verilməyib.**

İspaniya mətbuatı Albanın La Liqada oktyabrın 25-i keçiriləcək "Real"la görüşü buraxa biləcəyini yazıb.

## "Fənərbaxça"da 2 yeni futbolçu

### Elanlar

**Bakı şəhəri, Nərimanov rayonu, E.İsaqzadə qəsəbəsi, bina 8, mənzil 10 ünvanda yaşayan Əliyeva Nərmin Vaqif qızının adına 133 nömrəli orta məktəbdən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.**

***

**Kürdəmir rayon, Garıs-Əyribənd kəndində yerləşən Nadirov Elbəyi Cahangir oğluna məxsus 24 sentyabr 1994-cü il tarixli 09 saylı qərarla verilmiş JN:133, kod 90611058 olan torpağın mülkiyyətə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Kazımov Faiq Musaxan oğluna məxsus Abşeron rayon Donuzkökəltmə sovxozu ərazisində yerləşən 0,05 ha torpaq sahəsinin 0648757 seriyalı Çıxarışı (reyestr 308011025416) itdiyi üçün etibarsız sayılır.**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 05.10.2020